SərinGül Sadə

SÖZ ALƏMİM – ÖZ ALƏMİM

"Elm və təhsil"
Bakı - 2026

Redaktor: İladi ÖMƏROĞLU
Sair, "Qızıl qələm" mükafatı laureatı

SərinGül Sadə. Söz aləmim – öz aləmim.
Bakı, "Elm və təhsil", 2026, 208 səh.

SərinGül Sadənin poetik duyğuları çağdaş aşıq şeirimizin uğurlu davamı kimi klassik aşıq ədəbiyyati ilə indiki söz dünyası arasında körpüdür. Bu kitabda toplanan qoşma, gəraylı, təcnis, qəzəl, rübai və digər şeirlərdə müəllif insanın mənəvi aləminə nüfuz etməyi, yaxşını yaxşı, pisi pis göstərməyi bacarıb. O, Turanı, Türkçülyü tərənnüm edən şeirlərində soy-kökümüzə, milli mənəvi dəyərlərimizə, Vətənə, el-obaya bağlılığa xüsusi önəm verir. Bu kitab müəllifin sayca səkkizinci kitabıdır.

4702000000 **qrifli nəşr**
N-98-2026

© SərinGül Sadə, 2026

KİTABIN İÇİNDƏKİLƏR:

Söz sərrafı Səringül Sadə - İladi Ömərоğlu, ön söz 9

Qoşmalar, qəzəllər və başqa şeirlər.....13

Hüseyn Saraclı 14
Bir söz de.....15
Mən.....16
Bu qızın 17
Ağlaram 18
Gəlir 19
Bu dünyayla heç vaxt işin olmasın 20
Dünyanın qonağıyam 21
Eyləyə 23
Bənzəyərmi hamı biri-birinə 24
Dağlar.....25
Adam var ki.....26
İncidim 27
Eşqdən yaman söyləmə 28
Allah eşqi 29
Bu gecə 30
Eylədin 31
Baxış var ki 32
Əlimdən möhkəm yapış 33
Baxın.....34
Mən ürək oxuyuram 35
Bildim 37
Mən dədəmin qızıyam.....38
Əlindən.....40
Zəfər bayrağını eşqlə ucaltdın 41
Söz.....42

Papaq 43
Könlümün 44
Borçalım 45
Bizim yaylalar 46
Mən bir ömür yaşadım 47
Dağlar 48
Sən də gül 50
O dağlar 52
Yaradan məni 54
Sığışmıram yerə, göyə nədəndi 56
Mübariz 58
Eşq 60
Arasında 61
Məni 62
Dərdimə bir əlac tapa bilmirəm 63
Dözəmmirəm ayrılığa – bu dağa 64
Dedin 65
Çal asta-asta 66
Vətən 67
Əziz dayımoğlu Məhəmmədəli 68
Əzizə xanım 69
Bəhiyyə xanım 70
Solmazın 71
Kamandar 72
Baharın ətirli çiçəyisən sən 73
Bilmədi 74
Mirvarid Dilbazi 75
Haqqın-ədalətin bürcü Mirvarid 76
Bağlıdı 77
Beləsindən saxlasın 78
Xəsis 80

Görmədim....81
Aşiqiyəm....82
Kəlağayım....83
Sən mənim dünyamı etmisən zindan....84
İçimdə bir dünya var....85
Düşdüm....86
Canımı xalqıma qurban edərəm....87

Gəraylı və başqa şeirlər....88

Dağlar....89
Şindi....90
Yaylaqda....91
Bizim yaylaq....92
Gözəlliyin Tanrı payı....93
Tapır məni....94
Qürbətdə qalan kəsin....95
Budur arzu-gümanım....96
İçində....97
Deyim dünya bizimdi....98
Uduzmadım gərdişə....99
Gözləmə....100
Deyil....101
De, məndən nə istəyirsən....102
Yar ağlaram, yar ağlaram....103
Söz var....104
Yaxşılıq....105
Eşqin közü....106
Bilməmişəm....107
İnsanlar var bu dünyada....108
Gəlsin....109
Mahirdi....110

Aparar 111
Bu dünyada 112
Gəl sənə bir söz deyim 113
Mən heyranın olmuşam 115
Haqq-ədalət gəzirəm 116
Oldum 117
Yar yara baxdı getdi 118
Demərəm 119
Qızı 120
Yarın yadı andırdı 121
Papaq 122
Ağlama, qardaş, ağlama 123
Neynim 125
Ərdoğanım 127
Bilin 128
Ustad 130
Mən görmüşəm dünyanın hər üzünü 131
Olar 132
Çatıram 133
Ağrın alım 134
Yada salaq o günləri 135
Məhəmməd Nəbi eşqinə 136
Ay həkim 137
Cəvahirim, ləl-gövhərim 138
Bəxt, oda atdın məni 139
Gözümdə saxladım səni 140
Sözdü 141
Gəzirəm 143
Tanrımıza şükür edək 144
Ulu Tanrım 145
Olsun 146

Qürbət 147
Hər qadın 148
Gərək 149
Söyləyir 150
Sayı çoxdur 151
Deyir 152
Ərənlərin qəlbi birdi 153
Söyləyir ki4 154
Qardaş istər bacılar 155
Mənim dərdim 156
Tanıyıram bir kişini 157
Yaxşı 158
Yan keçərlər 159
Dünyamızın 160
Ey dədə 161
Yalnız Tanrım oldu yar 162
Gül üzümə 163
Durmaz 165
Oldu 166
Sabahınız xeyir olsun 167
Lələ 168
Bağban bağdan barın alar 169
Məni 170
Dədəm oğlanları 171
Şirindilli güllü bacım 172
Oldum mən 173
Atam 174
Anamız 175
Bağlıdı 176
Bunu bil 177
Yaxşılara canım qurban 178

Mənim bacı-qardaşım var 179
Bu dünyanın sonu bəlli....180
Bu dünyadan o dünyaya 181
Mənim gözəl Xanım anam 183
Gəlməyəndə....184
Önümdəki Haqq yoludu 185
Bil 186
Qorxuram....188
Ay eloğlu, sözüm budur....189
Baş açmısan bu dünyadan....190
Azərbaycan əsgəri 191
Şair olan....192
Türk elləri 193
Turana tay el olmaz....194
Azərbaycan – canımız....195
Mənim ulu Turanım....196

Rübailər....197

SÖZ SƏRRAFI SƏRİNGÜL SADƏ

(ön söz)

SərinGül Sadə ilhamını dağlardan, məsləhətini atasından və qardaş-bacısından alıb, seir-sənət aləminə qədəm qoyub, körpəlikdən Vətən, el-obanın vurğunu olub. Uşaqlıq və gəncliyini Ulu Borçalıda - Başkeçidin yaylaqlarında keçirib. Ayağını çəmənlərin şehi yuyub, dağların mehi saçlarına sığal çəkib.

SərinGül xanım heyrətamiz yaddaşa malikdir. O, Qurbani, Aşıq Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Saraclı şeirlərini unutmur, onları əzbərdən bilir. Aşıq Hüseyn Saraclı haqqında yazır:

Saz-söz aləminə nurunu saçıb,
Gənclərin önündə qapılar açıb.

Sözə, aşıq-ozan yaradıcılığına vurğun Səringül Sadə laylaları, bayatıları, qoşmaları, təcnisləri, gəraylıları yaddaşına həkk edib. Allah ona coşqun ilham-təb verib, şeirləri kitab və jurnallarda nəşr olunub, gəncliyindən safürəkli, xöşdiləkli və səxavətlidir, özünü sevimli oxucularına belə təqdim edir:

İlhamlıyam, səbrim deyil dar mənim,
Bayatıtək əziz balam var mənim.
SərinGüləm, sözdən qalam var mənim,
El içində hər vaxt uzü ağam mən.

Şairə söz sərrafıdır:

Söz Allahın hikməti,dünyamızın sərvəti,
Söz sahilsiz dəryadı, tükənməzdi neməti.

O, həmişə ustadları hörmətlə yada salmış, öz duyğularını belə izhar etmişdir:

Ustad ariflərdən dərsimi aldım,
Sözdən söz çəkənəm, söz aşiqiyəm.

Yaxud:

Söz var üzü ağ eylər,
Söz var dərdi dağ eylər.

Onun yaradıcılığında təcnis, cığalı təcnis, bayatı, qoşma, gəraylı, məsnəvi, rübai, beytlər əsas yer tutur. Onun rübailəri də məna yüklüdür:

Od götürdüm ocağının közündən,
Söz bitirdim hər dediyi sözündən.
Bir dən atdım torpağına dünyanın,
Mən götürdüm əvəzini özündən.

SərinGül xanım gözəllik vurğunudur. O, təbiət gözəlliyini, insan gözəlliyini, əsasən də könül gözəlliyini tükənməz duyğuları ilə vəsf edir:

O köklü-soyludu, namus-arlıdı,
Ədəbdən-ərkandan dövlət-varlıdı.

SərinGül söyləyir bağça-barlıdı,
Yanağı Göyçayın narı bu qızın.

Onun aləmində eşq müqəddəsdir:

Eşq inamdı, ilhamdı, o, həkimdi-loğmandı.

Bəxti elə gətirib ki, o, qürbət elləri çox dolanıb:

Qürbət eldə qalmaq çətin,
Azad nəfəs almaq çətin,
Sən qürbətin çək xiffətin,
Görək rəngin saralmazmı?

SərinGül Sadə Vətən sevdalısıdı, doğma Vətənini, yurdunu, el-obasını qürbətin naz-nemətinə dəyişməz:

Görmüşəm dünyanın yetmiş ölkəsin,
Yox imiş heç yanda tayın Borçalı.
Qürbətdə yaşanan yüz ilə dəyər,
Bir günün, bir həftən, ayın, Borçalı.

Vətənimiz Azərbaycan onun üçün müqəddəs yerdir:

Bəllidi ad-sanımız,
Şöhrətimiz-şanımız.
Azərbaycan canımız,
Cənnətin bir tayıdı.

Onun arzu-istəyinin bir məkanı da Ulu Turandı:

Arzu-istək xəyalım,
Şan-şöhrətim, calalım,
Eşq-ilhamım, amalım,
Mənim ulu Turanım!

Şairənin ürəyində Azərbaycan əsgəri, qazi və şəhidlər ən ilahi zirvədədir:

Şəhid ölməz, yurd bölünməz deyirlər.

SərinGülə qürurdu,
Yenilməzdi, məğrurdu.
Hər biridi bir ordu,
Azərbaycan əsgəri,
Çaldı parlaq zəfəri.

SərinGül Sadə bu gün də coşqun ilhamla, yorulmadan Bakıda yazıb-yaratmaqdadır. Ona uğurlar arzulayırıq.

İladi ÖMƏROĞLU
"Qızıl Qələm" mükafatı laureatı

QOŞMALAR, MƏSNƏVİLƏR VƏ BAŞQA ŞEİRLƏR

HÜSEYN SARACLI

Hər sözü-söhbəti canlara dərman,
Elin yaddaşında qalıb hər zaman.
Olub ağızlarda-dillərdə dastan,
Ustadlar ustadı Hüseyn Saraclı.

Saz-söz aləminə nurunu saçıb,
Gənclərin önündə qapılar açıb.
Nəsihət eyləyib, boş sözdən qaçıb,
Qazanıb saf adı Hüseyn Saraclı.

Müqəddəs bilibdi Azərbaycanı,
Sadənin də olub şöhrəti-şanı.
Sazla heyran qoyub böyük Turanı,
Borçalı övladı Hüseyn Saraclı.

BİRCƏ SÖZ DE

Bircə söz de, Nizamidən dərs alaq,
Babalartək işimizdə düz olaq.

Sözü deyib söz mülkünün xaqanı,
Xaqanitək kəlamlara ver canı.

Bircə söz de, Mövlananı biz anaq,
Hikmətini başa düşək – nurlanaq.

Bir kəlmə de Yunus Əmrə sözündən,
Od götürək ocağının közündən.

Bircə söz de, mən də qıyım bu cana,
Nəsimitək sığışmayım cahana.

Bircə söz de, Füzulini yad edək,
Biz də sevgi aləmində ad edək.

Bircə söz de, Ələsgərdən, Güllüdən,
Almayanaq, büllurbuxaq Tellidən.

Bircə söz de Şəhriyardan, can deyək,
Heydərbaba sevdasına yan deyək.

Bircə söz de, Zəlimxantək od saçaq,
Misralarda ləçəklənib gül açaq.

Bircə söz de, yandır ümid şamını,
Nuş eyləyək, Sadə, eşqin camını!

MƏN

Kövrəlmişəm, bulud kimi dolmuşam,
İstəyirəm yağmur olub yağam mən.
Hicranlıyam, dərddən şan-şan olmuşam,
Ağlağanam* – çən-dumanlı dağam mən.

Bir işə bax, dərdlə canhacandayam,
Heç bilmirəm özüm hansı yandayam.
İntizardan, qəm-qüssədən şandayam,
Kim bilir ki, xəstə, yoxsa sağam mən?

İlhamlıyam, səbrim deyil dar mənim,
Bayatıtək əziz balam var mənim.
SərinGüləm, sözdən qalam var mənim,
El içində hər vaxt üzü ağam mən.

* dağ adı

BU QIZIN

Gözəllik bu qıza Xudadan paydı,
Dodağı qönçədi, camalı Aydı.
Huridi, mələkdi - Leyliyə taydı,
Hansı bəxtəvərdi yarı bu qızın?!

Başında hər teli bir saz havası,
Gözəl gözləridi zülmət çırası.
Vurub çoxlarına sevgi yarası,
Sinəsi Savalan qarı bu qızın!

O, köklü-soyludu, namus-arlıdı,
Ədəbdən-ərkandan dövlət-varlıdı.
SərinGül söyləyir, bağça-barlıdı,
Yanağı Göyçayın narı bu qızın!

AĞLARAM

Sənə yalvarıram, ulu Yaradan,
Xəbər tut könlümün ahu-zarından.
Al dövlət-varımı, ayırma yardan,
Eşqin atəşinə yanıb, ağlaram!

Qarlı qışa döndü çiçəkli yazım,
Hər zaman ağladı sinəmdə sazım.
Çatmadı kimsəyə səsim, avazım,
Gen dünyanı zindan sanıb, ağlaram!

Sadə nələr çəkdi dərdin əlindən,
Baş açа bilmədi fitnə-felindən.
Xudam, qoru məni qəmin selindən,
Xoş keçən günləri anıb, ağlaram!

GƏLİR

Zəlidi, susayıb axan al qana,
Bir içim su qıymaz canı çıxana.
Şər-böhtan söyləyir mömin insana,
Dünyanın pisliyi əlindən gəlir.

Zalım oğlu saymır kimsəni saya,
Ağılsız yanaşır ağıldan zaya.
Elə ki, o, gəlir toy-düyün, vaya,
Yapışıb min şeytan telindən gəlir.

Oda yanar yalan, böhtan deməsə,
Canı çıxar müftə, haram yeməsə.
Ağzın açıb bircə kəlmə söyləsə,
Əqrəbin zəhəri dilindən gəlir.

BU DÜNYAYLA HEÇ VAXT İŞİN OLMASIN

Dünya da Rəbbimin quludu, oğul,
Yaxşılıq, yamanlıq yoludu oğul.
Hikmət – möcüzəylə doludu, oğul,
Gözlə səbir kasan daşıb-dolmasın,
Bu dünyayla heç vaxt işin olmasın!

Dünyanın kələfin açan olmayıb,
Pərvazlanıb quştək uçan olmayıb.
Əcəl qabağından qaçan olmayıb,
Gözlə səbir kasan daşıb-dolmasın,
Bu dünyayla heç vaxt işin olmasın!

Bəxtin üzü dönsə, üzünə gülməz,
Haqdan yanan çıra, min üfür, sönməz.
Yaxşı bil, SərinGül sözündən dönməz,
Gözlə səbir kasan daşıb-dolmasın,
Bu dünyayla heç vaxt işin olmasın!

DÜNYANIN QONAĞIYAM

Dünyanın qonağıyam, cənnətini gəzirəm,
Eşqinin köləsiyəm, ona niyaz-nəzirəm.

Dünyanın qonağıyam, səxavətlə pay verdi,
Bir içim su istədim, bulaq, dərya, çay verdi.

Dünyanın qonağıyam, payım ləldi-gövhərdi,
Haqqa verib əlimi, Haqq dilimdə əzbərdi.

Dünyanın qonağıyam, ondan dərsim alıram,
Sözlə könül şad edib, sözdən körpü salıram.

Dünyanın qonağıyam, o hay verir hayıma,
Bütün gözəllikləri yazıb ömür payıma.

Dünyanın qonağıyam, ömrə haqqı-say verib,
Məni yaradan Allah öz nurundan pay verib.

Dünyanın qonağıyam, intizarım qalmadı,
Eşqinə sadiq oldum, məni gözdən salmadı.

Dünyanın qonağıyam, dostum ulduzlar sayı,
Dostlarımı sanıram yerin Günəşi, Ayı.

Dünyanın qonağıyam, qızıl kimi baxt verib,
Şaha döndərib məni, qızıldan da taxt verib.

Dünyanın qonağıyam, nur eyləyib yolumu,
Yıxılmağa qoymayıb, darda tutub qolumu.

Dünyanın qonağıyam, zülmətə işıq saçdı,
Ömrümün xəzan çağı bağçamda güllər açdı.

Dünyanın qonağıyam, yox etdi məlalımı,
Canından pay da verib xoş eylədi halımı.

Dünyanın qonağıyam, bağından bar dərirəm,
Toplayıb gül-çiçəyi, yar yoluna sərirəm.

Dünyanın qonağıyam, məni əziz, baş tutur,
Bu istək, bu sevincdən gözlərimi yaş tutur.

Dünyanın qonağıyam, bunu bilir çox kişi,
Payımdan pay verməyə eyləmişəm vərdişi.

Dünyanın qonağıyam, oturdub şah taxtına,
Doğulandan yazılıb bu, Sadənin baxtına!

EYLƏYƏ

İladi Ömərоğluna nəzirə

Bir aşıq istərəm, əlində sazı,
Girə bu meydana, cövlan eyləyə.
Sazı dilləndirə, səsi-avazı,
Yaralı könlümə dərman eyləyə!

Dağıda başımdan dumanı-çəni,
Yox edə qəlbimdən qəmi-qüssəni.
Toy qurub bəzəyə sözüylə məni,
Qəlbimi açmağa imkan eyləyə!

Arzum belədir ki, deyim düzünü,
Yalnız mənə tərəf tuta üzünü.
Sadəyə söyləyə mədhin yüzünü,
Namərdin qəddini kaman eyləyə!

BƏNZƏYƏRMİ HAMI BİRİ-BİRİNƏ

Adəmoğlu yaranandan dünyaya,
Gələnlərin əzəli bir, sonu bir.
Dağılardı, qarışardı, yer göyə,
Hamı getsə bir tərəfə yönü bir.

Gəl baş vuraq dəryalarda dərinə,
Əvəz olmaz heç kimsənin yerinə.
Bənzəyərmi hamı biri-birinə,
Geysələr də papağı bir, donu bir?

Çox görübdü Sadə dəli, sarsağı,
Haqlı olan haqsız alıb qınağı.
Yar-yoldaşa eyləsəniz sınağı,
Agah olun, yüzü boşdu, dolu bir!

DAĞLAR

Battaxlı olubdu igid oylağı,
Duyurmu səsimi Sərxan, Qırdağı?
Qaynayıb-daşırmı Südlü bulağı,
Titrədir qəlbimi, fərağın, dağlar!

Xəbər ver Atıcı, Kərədağından,
Armudlu gölündən, Göy bulağından.
Çoxdan ayrılmışam mən qucağından,
Gözəldi-göyçəkdi hər çağın, dağlar!

Kim bilir dünyanın sağla-solunu,
Şindi intizardan açıb qolunu,
Gözləyir Sadənin gələn yolunu,
Deyən mənsiz qalıb yaylağın, dağlar?!

ADAM VAR Kİ

Adam var ki, incitməz bir ürəyi,
Tutduğu yol həqiqətin yoludu.
Adam da var, dala qalmaz şeytandan,
Qəlbi kinlə-küdurətlə doludu.

Adam var ki, adamlıqdan söz açır,
Danışanda ayaq altdan yer qaçır.
Adam da var, Günəş kimi nur saçır,
Safdan safdı, kökü-soyu uludu.

Adam var ki, olar bircə sifəti,
El yanında daim vardı hörməti.
İnsanlara yaxşılıqdır niyyəti,
Öz xalqının qatlanmayan qoludu.

Fitnəkarın cığırından keçilməz,
Yaxın gedib, heç suyundan içilməz.
Əllərinin altı-üstü seçilməz,
İstədiyi haram malın puludu.

Sadə, mətləb anlayandı, duyandı,
Köməksizə, arxasıza hayandı.
Gecə-gündüz Haqq yolunda dayandı,
Allahının əziz xələf quludu!

İNCİDİM

Dili gödək, üzü qara üzündən,
Dərddən canım göynəyəndə incidim.
Yandı köksüm, çat-çat oldu odumdan,
Nadan sözü çeynəyəndə incidim.

Bu yolların yoxuşunda sızladım,
Zülmət çökdü, dan yerini gözlədim.
Olan oldu, axı nəyi gizlədim?
Səbrim daşıb qaynayanda incidim.

Sərin Gülün nəfəsi gül qoxulu,
Bəxt-qisməti oyanmaz heç - yuxulu.
Mərd görəndə yaniüstə yıxılı,
Müxənnətsə oynayanda incidim!

EŞQDƏN YAMAN SÖYLƏMƏ

Eşqdən yaman söyləmə, sular kimi durudu,
Onsuz həyat olammaz, yerin, göyün nurudu!

Eşqdən yaman söyləmə, bağbansız bağa dönər,
Saralar rəngi-ruhu, yetim uşağa dönər!

Eşqdən yaman söyləmə, o gərilər yay kimi,
Boylanıb küskün baxar, bulud örtmüş Ay kimi.

Eşqdən yaman söyləmə, çiçəkdi – xarı sevməz,
Bahar ömrü yaşayar, boranı-qarı sevməz!

Eşqdən yaman söyləmə, qaçar səndən, amandı,
Çağlayıb axan çaydı, sahilsiz bir ümmandı!

Eşqdən yaman söyləmə, düşünmə ki, kar-laldı,
Əvvəli göz yaşıdı, sonu şirin vüsaldı!

Eşqdən yaman söyləmə, getməz gözünə yuxu,
Sadənin şeirini dönə-dönə sən oxu!

ALLAH EŞQİ

Allah eşqi, istəyi yaşadır bu cahanı,
Yolunda qurban verrəm, bir nədir ki, min canı.

Bu sevginin oduyla mən alışıb-yanıram,
Gözüm görmür heç nəyi, onu qiblə sanıram.

Allah eşqi böyükdür, bəndi-bağı qırılmaz,
Ona tərəf yol gedən heç bir zaman yorulmaz.

Mən bu eşqdən danışım – yaşı dünyanın yaşı,
Nə qədər sevgi olub, odur hamsının başı.

Bu sevgidən söyləyim – pətəkli balım olub,
Yaxşılığa ucalan cığırım-yolum olub.

Bu ilahi sevgidir – göz yaşıtək dumduru,
İşıq verir aləmə, azalan deyil nuru.

Allah eşqi qəlbimin saf sevgisi, canıdı,
Sadə onun vurğunu, bilin ki, qurbanıdı!

BU GECƏ

Çəkilibdi üzərimə fələyin yayı bu gecə,
Qoymayıb ki, seyr eyləyim ulduzu-ayı bu gecə.

Mənimlə cəngə başlayıb, fələk dərdimi artırıb,
Qəlbimə qəm bağışlayıb, bilinmir sayı bu gecə.

Yeri-göyü silkələyib,başıma odlar ələyib,
Gözlərimdən axıdıbdı kədərdən çayı bu gecə.

Qopardı qəm tufanımı, azca kərəm eyləmədi,
Sevinc-şadlıqdan bu fələk qıymadı payı bu gecə.

Parçalayıb bəxd gəmimi, batırdı qəm qəryasında,
Gələmmədim heç özümə, o tutdu toyu bu gecə.

Ah-amanım qalxdı göyə,olmadı bir dada çatan,
Alovlanıb yanıb oldum, Əslinin tayı bu gecə.

SərinGüləm, üzülmüşəm, ümidim bircə səndədi,
Rəbbim,məni kim qoruyar, səndən savayı bu gecə!

EYLƏDİN

Dad sənin əlindən, a qanlı fələk,
Məni dərdə-qəmə dustaq eylədin.
Gətirdin yadıma olub-keçəni,
Həddən çox incidib qınaq eylədin.

Dolandım dünyanı, gəzdim cahanı,
Axtardım, tapmadım dostu-hayanı.
Daşdırdı gözümün yaşı dəryanı,
Ruhumu göylərdə çıraq eylədin.

Bağbanam, bağımı sellərə verdin,
Eşqimi sərt əsən yellərə verdin.
Ömrümü vəfasız illərə vedin,
Çəkdin imtahana, sınaq eylədin.

Qəlbimdə qalmadı deməyə sözüm,
Odlandı ürəyim, alışdı üzüm.
O uzun yollarda hey qaldı gözüm,
Qəm verib əhvalım soraq eylədin.

Sadə nəzər saldı öz həyatına,
Baxdı alındakı qırış, çatına.
Hər vaxt mane oldun toy-büsatına,
Küləyi saçıma daraq eylədin!

BAXIŞ VAR Kİ...

Baxış var ki, cəhənnəmi andırar,
Baxış var ki, ümid şamı yandırar.

Baxış var ki, mənasızdı, qurudu,
Baxış var ki, axar sutək durudu.

Baxış var ki, su yerinə qan tökər,
Baxış var ki, yağı cəllad diz çökər.

Baxış var ki, qəfil ürək durdurar,
Baxış var ki, qəlbə körpü qurdurar.

Baxış var ki, üzümüzü güldürər,
Baxış var ki, ümid, inam öldürər.

Baxış var ki, həddən çoxdu cəfası,
Baxış var ki, min bir dərdin dəvası.

Baxış var ki, sanki şeytan yoludu,
Baxış var ki, sevinc-şadlıq doludu.

Baxış var ki, acı yellər əsdirir,
Baxış var ki, dava-şava kəsdirir.

Baxış var ki, hamı ondan dad edir,
Baxış var ki, könülləri şad edir.

Sadə qəlbi – həqiqətin aynası,
Hər bir baxış – baxanın iç dünyası!

ƏLİMDƏN MÖHKƏM YAPIŞ

Əlimdən möhkəm yapış, yerim, göyüm, cahanım,
Bəxtimə doğan Günəş, sənsiz qaralır qanım.

Əlimdən möhkəm yapış, mənə sevgidən oxu,
Sevgisiz bir ürəyə qoy dəysin namərd oxu.

Əlimdən möhkəm yapış, at daşını xülyanın,
Nə tutubsan beşəlli yaxasından dünyanın?

Əlimdən möhkəm yapış, yaxşıdan çox yaman var,
Düşünmə bu dünyada Haqq, ədalət, divan var.

Əlimdən möhkəm yapış, göydə ildırım çaxır,
Yer, göy lərzəyə gəlir, bozbulanıq sel axır.

Əlimdən möhkəm yapış, dəryalara baş vuraq,
Bu dünyanın içində yeni bir dünya quraq.

Əlimdən möhkəm yapış, qəmlərə qərq olmuşam,
Çaxnaşıram buludtək, qaralmışam, dolmuşam.

Əlimdən möhkəm yapış, sən ey gözümün nuru,
Bu SərinGül Sadənin sənsən fəxri, qüruru!

BAXIN

Qulaq verin dərd bilənlər, qəlbimdə ah-zara baxın,
Dünya görüb qəm sezənlər, siz bu dilsiz yara baxın.

Əsir acı yellər kimi, coşur daşqın sellər kimi,
Viran qalmış ellər kimi sinəm olub qara, baxın.

Uçurubdu bənd-bərəni, ortadan kəsib kərəni,
Qırılsın yazan qələmi, eşqi bumbuz qara baxın.

Mən nə deyim Yaradana, doğulandan gəldim cana,
Dönük çıxan əhd-peymana, el içində xara baxın.

Bağ-bağçamda bülbül ötmür, duman çöküb, çiskin getmir,
Baxışları alov tökmür, canımdakı nara baxın.

Canım alıb canhacanla, tay tutaraq bir nadanla,
Əlbir olub o yamanla, görən közü kora baxın.

Fələk dərdi bol eyləyib, sinəmdən də yol eyləyib,
Bu Sadəni qul eyləyib, salıbdı o, tora, baxın!

MƏN ÜRƏK OXUYURAM

Çəkilmişəm xəlvətə, kimsə yoxdu yanımda,
Səslənir duyğularım damardakı qanımda.

Mən ürək oxuyuram, eşqi ümman duyuram,
Eşqi başa tac edib, gözlərdən oxuyuram.

Mən ürək oxuyuram, ocağının közüyəm,
Təpədən dırnağadək elə eşqin özüyəm.

Mən ürək oxuyuram, könül sözdən kam alıb,
Könlünün arzuları ürəyə körpü salıb.

Mən ürək oxuyuram, bir müşk-ənbər qoxulu,
Büllur şüşədən zərif, gözü nəmli, yuxulu.

Mən ürək oxuyuram, dərya çağlar içində,
Ağlar ürəklər gördüm bu zamanın köçündə.

Mən ürək oxuyuram, Tanrıdan almışam pay,
Yer üzündə tayı yox, içimdədi bu saray.

Mən ürək oxuyuram, göylərin saf üzündən,
İstəklərim kam alıb göylərin dənizindən.

Mən ürək oxuyuram, buludun baxışından,
Ömrümün ilmələri çözəlir yağışından.

Mən ürək oxuyuram, dünyadan qıraqdadı,
Ürəkləri oxumaq əsl yaşamaqdadı.

Mən ürək oxuyuram, bilinmir əzəl-sonu,
Təkcə onu bilirəm Haqqa doğrudu yönü.

Mən ürək oxuyuram, dartılıbdı yay kimi,
Eşqini nişan alıb Yaradandan pay kimi.

Mən ürək oxuyuram, insanlığın yuvası,
Halallıqla yoğrulub, halaldandı mayası.

Mən ürək oxuyuram, özü bu dünya boyda,
Yurd salıb, yuva qurub Sadənin özü orda!

BİLDİM

Bu qoca dünyadan getmək nə demək,
Ağlaya-ağlaya gələndə bildim.
Dərd çəkib, tükənib bitmək nə demək,
Qovrula-qovrula güləndə bildim.

Qışın çiləsində yanan canları,
Yayın ortasında donan canları,
Bəxtin sınağında sınan canları,
Anam göz yaşını siləndə bildim.

Sadə, can yandıran eşqin odunu,
Görməmək nə çətin vüsal dadını.
İtirmək nə demək ana yurdunu,
Araz ürəyimi bələndə bildim.

MƏN DƏDƏMİN QIZIYAM

Mən dədəmin qızıyam, düzü əyri qanmıram,
Düşsəm də od-alova dedyimi danmıram.

Mən dədəmin qızıyam, Haqqa qapı açıram,
Yalanlara dözmürəm, haqsızlıqdan qaçıram.

Mən dədəmin qızıyam, yıxılana dayağam,
Yaxşılığa sevinən, Haqq yoluna mayağam.

Mən dədəmin qızıyam, bir baxışdan qanıram,
Ağlayanla ağlayıb, dərd-sərinə yanıram.

Mən dədəmin qızıyam, qılıncdan iti sözüm,
Çəkirəm el dərdini, məndə var lap çox dözüm.

Mən dədəmin qızıyam, dilim sevgi dilidi,
Könlümsə bağçaların oxuyan bülbülüdü.

Mən dədəmin qızıyam, kimsəyə söz vurmuram,
Hamıya mehribanam, heç kimdən yan durmuram.

Mən dədəmin qızıyam, yolu - dədələr yolu,
İncitmədim nalanı, qəlbim sevinclə dolu.

Mən dədəmin qızıyam, ədəb-ərkan məndədi,
Haqqın yoluyla gedən – Haqqı duyan bəndədi.

Mən dədəmin qızıyam, onun kimi yazanam,
Bağlanmışam bayatıya, sanki aşıq-ozanam.

Mən dədəmin qızıyam, tay-tuşlarım bəllidi,
Sadənin ürək sözü hamıya təsəllidi!

ƏLİNDƏN

Aşıq, ağrın alım, çal, pəsdən oxu,
Al məni kədərin-qəmin əlindən.
Ömrümü-günümü sevincə toxu,
Qurtarım o bəxti kəmin əlindən.

Kimi bağban olur bağçaya-bağa,
Kimi nökər olur, kimi də ağa.
Dünya yaxşıları çəkir sınağa,
Gör kimi öldürür kimin əlindən.

Könül, kim bacardı, gəl, sındırma baş,
Ölüm Haqq işidi, yaşamaq – savaş.
Sadə, sev, eşqinlə qarlı dağlar aş,
Dəmir də çürüyür nəmin əlindən,
Qurtar sən kədərin-qəmin əlindən.

ZƏFƏR BAYRAĞINI EŞQLƏ UCALTDIN

Qalxdı hiddət ilə dəmir yumruğun,
Harayın göylərin bağrını dəldi.
Qırx dörd gündə olan qanlı döyüşdə,
Düşmənin naləsi ərşə yüksəldi.

Xoş müjdə bəxş etdin şəhid ruhuna,
Yaralı torpağa nəfəs gətirdin.
Parlayan Günəştək əməllərinlə,
Qatı qaranlığı alıb itirdin.

Yenilməz Zəfərin təntənəsiylə,
Əridi Şuşanın buzlu yolları.
Duman-çən çəkildi dağ sinəsindən,
Köçkünlər döndülər Vətənə sarı.

O dahi Öndərin arzularını,
Xalqın yaddaşında gerçək yaşatdın.
Hünərin bəllidi bütün dünyaya,
Zəfər bayrağını eşqlə ucaltdın.

İqtidar birliyi, xalq həmrəyliyi,
Hopub yaddaşına vaxtın, zamanın.
Ruhları şad olsun şəhidlərimin,
Ali Prezidentim, Baş Komandanım!

SÖZ

Söz Allahın hikməti, dünyamızın sərvəti,
Söz sahilsiz dəryadı, tükənməzdi neməti.

Söz alıbdı bəzəyi göydə ulduzdan, Aydan,
Sözlə gözəlləşibdi başdan-başa bu cahan!

Söz ağrıdar başını pozulanda nizamı,
Cilalayıb hər sözü ulu şair Nizami!

Söz ağrıdar başını bağlanmasa imana,
Əzəldən düşmən olub şər-böhtana, talana!

Söz ağrıdar başını sən dəm versən yalana,
Dəva-dərman tapılmaz dava-dalaş salana.

Söz ağrıdar başını, yerli-yerində söylə,
Sözə yol verənlərə çalış yaxşılıq eylə.

Söz ağrıdar başını, əgər deyilsə yersiz,
Söz qədrini bilməyən utanıbdı, çöküb diz.

Söz ağrıdar başını, bil onun qüdrətini,
Aqillərdən dərs alıb öyrən sən hikmətini.

Doğru-düzgün, yaxşı söz yamanlıqdan qaçandı,
Nahaqqa qənim olub, Haqqa qapı açandı!

Sadə can qurban eylər, sözdən körpü salana,
Hamı afərin deyir, sözü yadda qalana!

PAPAQ

Bələd olan yoxdu onun yaşına,
Əzəldən igidlər qoyub başına.
Olubdu həmişə bir dost-aşina,
Xalqımız sevibdi belə papağı!

Papaq müqəddəsdi Azərbaycanda,
Hey başda olubdu, cəngdə, meydanda.
Mərdlər qoruyubdu ağır zamanda,
Onlar verməyiblər ələ papağı!

O şanlı papaqdan çəkmir gözünü,
Azad ölkəmizə tutub üzünü,
SərinGül Sadə də deyir sözünü,
Ar-namus biliblər elə papağı!

KÖNLÜMÜN

Bəmdə çalan sazdı, inləyən kaman,
Kəsmir gecə-gündüz ahı könlümün.
Alıbdı üstünü qara buludlar,
Görünmür gözünə mahı könlümün.

Abbas, Qurbanidi dostu, sirdaşı,
Xəstə Qasım deyir hər addımbaşı.
Sarı Aşıq onun yarı-yoldaşı,
Dədəm Ələsgərdi şahı könlümün.

Başda oturubdu Ağ Aşıq, Alı,
Ondadı Vidadi dərdi-məlalı.
Molla Cuma kimi var qilü-qalı,
Vaqifdi ovçusu ahu könlümün.

Gözünün nurudu Pir Sultan Abdal,
Əmrə, Mövlanadı ona cah-cəlal.
Aşıq Şenlik ilə Veysəl xəbər al,
Turana bağlıdı rahı* könlümün.

Don geysə atəşdən, don geysə oddan,
Nizami, Xaqani çıxarmı yaddan?
Füzuli qonağı gəlib uzaqdan,
Qurtarmaz, ey Sadə, vahı* könlümün!

---

* - yol

* - qorxu, həyəcan

BORÇALIM

Gəzmişəm dünyanın yetmiş ölkəsin,
Yoxuymuş heç yanda tayın, Borçalım.
Qürbətdə yaşanan yüz ilə dəyər,
Bir günün, bir həftən, ayın, Borçalım!

Qoynun başdan-başa gülşən-laləzar,
Qışının, yazının öz aləmi var.
Yayda da taparsan zirvələrdə qar,
Necə də gözəldir yayın, Borçalım!

SərinGüləm, sözüm düşər dillərə,
Həsrətdən göz yaşım dönər sellərə.
Səndən uzaq düşsəm uzaq ellərə,
Gözümün yaşıdır çayın, Borçalım!

BİZİM YAYLALAR

Dünyaya səs salıb gözəlliyiylə,
Elə bil cənnətdir, bizim yaylalar.
Allahın bizlərə bəxş elədiyi,
Ən gözəl sərvətdir, bizim yaylalar.

Ruhları oxşayan gözəl çağıyla,
Aləmə səs salan Şindi dağıyla,
İgidtək vuruşan azğın yağıyla,
Şərəfdir, qüdrətdir, bizim yaylalar.

Onlardır Sadənin könül sirdaşı,
Doğmadır, əzizdir qayası, daşı.
Külli-kainatda ucadır başı,
Əbədi şöhrətdir bizim yaylalar.

MƏN BİR ÖMÜR YAŞADIM

Ömür bir ərmağandır Yaradandan bizlərə,
Gəlin salam söyləyək yaxşılara-düzlərə.

Ömür yazı-qədərdi, o da qismətə bağlı,
Qəm-qüssədi, kədərdi, çoxdu sinəsi dağlı.

Mən bir ömür yaşadım, gördüm yaxşı-yamanı,
Sözə körpü salanın qoy var olsun imanı.

Mən bir ömür yaşadım - köçəri quşlar kimi,
Sızlayan ürəyimin qırılıbdı çox simi.

Mən bir ömür yaşadım, bilin ağlı-qaralı,
Tanrım başımdan tökdü var-dövlət, cah-calalı.

Mən bir ömür yaşadım, şeytana heç uymadım,
Olanımdan pay çıxdım, yaxşılıqdan doymadım.

Mən bir ömür yaşadım, heç ürək sındırmadım,
Yalan, şər-böhtan deyib imanı yandırmadım.

Mən bir ömür yaşadım, sanki bir göy qurşağı,
Danışıb söyləmədim heç boğazdan aşağı.

Düşünməyin söz deyib, dediyimdən qaçmışam,
Bacardıqca hər zaman qəmli könül açmışam.

Mən SərinGül Sadəyəm, sözüm vardır sizlərə,
Elə-günə yarayaq, ağ olmayaq üzlərə!

DAĞLAR

(cığalı təcnis)

Duman-çiskin bürüyübdü bu dağı,
Gün çıxıb, yel əssə o dağlar-dağlar.

O dağlar,
Ocaq yanar, od ağlar.
Gülü qana boyanıb,
Viran qalıb o dağlar.

Qırılsa kimsənin qolu-budağı,
Ağlar, sinəsini o dağlar-dağlar.

Haqq əhliyəm, tərk edərmi düz məni,
Xəlq eyləyib düz xətrinə düz məni.

Düz məni,
İpə-sapa düz məni.
Əyrilərlə aram yox,
Gəzib tapsın düz məni.

Çaşdırsa bir əyri, ya bir düz məni,
Məndən üz döndərər o dağlar-dağlar.

Yaralı ov sığınıbdı bu dağa,
Gözüm gördü, könlüm dözmür bu dağa.

Bu dağa,
Kim qarğıyıb bu dağa.
Viran qalıb gül bağı,
Necə dözüm bu dağa?

Sadə bülbül olub, qonub budağa,
O fəğan eyləsə, od ağlar-ağlar!

SƏN DƏ GÜL
(cığalı təcnis)

Biney başdan ağlamağı sevmirəm,
Qoşul mənə, söylə-danış, sən də gül.

Səndə gül,
Xoş ətir var səndə gül.
Sənin gözün bülbüldə,
Bülbül gözü səndə, gül.

Könlüm evi çayır-çəmən - onu bil,
İçindəki al rəngində sən də gül.

Yaradanda Tanrı bizə can verdi,
Aşiq eşq yolunda cana can verdi.

Can verdi,
Can alanlar can verdi.
Qızıldan taxtı olan,
Quru yerdə can verdi.

Var verəndə xəsis sanki can verdi,
Əl titrədi, ürək əsdi sən də gül!

Sadə baxa gül cəmala-gül üzə,
Gül yaraşar gül əndama, gül üzə.

Gül üzə,
Al gətirib gül üzə.
Həmdəm ol ağlayana,
Sil yaşını, gül üzə.

Çalış göz yaşında qoyma gül üzə,
Sevən qəlbə bir yol gördüm səndə, gül!

O DAĞLAR

(cığalı təcnis)

Nə olsun ki, baxanda göz oxşayır,
Ağlar qoyub neçəsini o dağlar.

O dağlar,
Ağ örpəkli o dağlar.
Çağırıram dinməyir,
Lalmı olub o dağlar?

Həsrətindən ahu-zarıq, gülmürük,
Eşq əhlini qovurduqca od ağlar.

Qayda budur, naz eləyər yar yara,
Loğman ola, yar yarasın yar yara.

Yar yara,
Qənim olmaz yar yara.
Verər varın-dövlətin,
Can qıymazmı yar yara?

Nə zamandır həsrət qalıb yar yara,
Vaxt məfhumdur, o dağıdar, o dağlar.

Yamanları yansın, at oda getsin,
Alışıb ev yansın xas oda getsin.

Oda getsin,
Namərddi, o da getsin.
Sil qəlbindən adını,
Qoy yansın oda getsin.

Yol aç pərvanələr qoy oda getsin,
Sadə qəlbin o yandırar, o dağlar!

YARADAN MƏNİ

(cığalı təcnis)

Yeri-göyü xəlq eyləyib Yaradan,
Öldürmə amandı, Yaradan məni.

Yaradan məni,
Yetir yara dan məni.
Edib bir bəxtsızə tay,
Ulu Yaradan məni.

Görsə bu halımı fələklər ağlar,
Soruşsa amandı, yara dan məni.

Boylanır buluddan Ay üzə-üzə,
Namərd canım alır ay üzə-üzə.

Ay üzə-üzə,
Baxa ay üzə-üzə.
Qara bulud dağıla,
Çıxa Ay üzə-üzə.

Mərd söylər sözünü ay üzə-üzə,
Ona yoldaş eylə,Yaradan məni.

SərinGüləm, bənzəyirəm gülə mən,
Bilin oldum arı kimi gül əmən.

Gülə mən,
Çiçəyə mən, gülə mən.
Dönüb şeyda bülbülə,
Vurulmuşam gülə mən.

Hey dolandım, qondum güldən-gülə mən,
Nə xoşbəxt yaradıb Yaradan məni!

SIĞIŞMIRAM YERƏ, GÖYƏ NƏDƏNDİ

(cığalı təcnis)

Hicran düşdü, sazım qəmə kökləndi,
Sığışmıram yerə, göyə, nədəndi?

Nə dəndi,
Nə sünbüldü, nə dəndi.
Başa ələdiyin qar,
Enib qaşa, nədəndi?

Həsrətindən nasaz qəlbim, a zalım,
Yar söyləyər, yar soraqlar, nədəndi?

Yanaqlara gətirəndi söz alı,
Qayda budur, söz verənlər söz alı.

Söz alı,
Aşıq Haqdan söz alı.
Qoşun, ləşkər almayan
Şəhərləri söz alı.

Saf sevgisiz ruh bədəndə sozalı,
Könlüm evi nə xırmandı, nə dəndi.

Sadə, tut üzünü dağlara sarı,
Quşa dön, qanad aç dağlara sarı.

Dağlara sarı,
Odur dağlar, a Sarı.
Günəş qürub eylədi,
Çökdü dağlara sarı.

Şələlə dərdini, dağlara sarı,
Eşqmi tutub, tərpənmirsən nədəndi?

MÜBARİZ

(Azərbaycanın Milli Qəhrəmanı
Mübariz İbrahimova)

Ulu Azərbaycanım, heç vaxt odun sönməsin,
Zirvələrdə bayrağın dalğalansın, enməsin!

Sizə dastan söyləyim Mübarizdən – igiddən,
Od-alovdan don geyən o bənzərsiz şəhiddən!

Çəkinməyib düşməndən, tək keçibdi səngəri,
Hücum edib qoşuna, qazanıbdı Zəfəri!

Ordu yenən ərəndi, qara nərdi Mübariz,
Dünyanı mat eyləyən şəhid ərdi Mübariz!

Bu yol ərən yoludu, son ucu Haqqa bağlı,
Bu yolun yolçusunun bitməz dastanı, nağlı!

Bu yol ərən yoludu, namus, qeyrət, ar orda,
Ürəklərdə yaşayan Mübarizim var orda!

Bu yol ərən yoludu, tər gülləri solmayıb,
Mübariztək bu yolu təkcə keçən olmayıb!

Bu yol ərən yoludu, burdan şəhidlər keçib,
Bir döyüşüb çox igid, bu dünyadan bir köçüb!

Onlar sevib bayrağın ulduzunu, Ayını,
Dirlik suyundan alıb Şəhidlər öz payını!

Vətənə məlhəm olub Mübarizin al qanı,
Hünəriylə tanıdıb doğma Azərbaycanı!

Qələbəylə doludur Mübarizin aləmi,
Onu anıb, azalmır bu Sadənin dərd-qəmu!

EŞQ

Mən eşqdən yaranmışam, yoğrulub eşqlə canım,
Göy buludlar üzündə görünür söz məkanım.

Eşq bağının gülüyəm, süsəni-sünbülüyəm,
Dilim eşqin dilidi, oxuyan bülbülüyəm.

Eşqin xanı, sultanı, qulu, kənizi mənəm,
Eşqə könlünü verən kəsin əzizi mənəm.

Eşq inamdı, ilhamdı, o, həkimdi, loğmandı,
Zərif büllur şüşədi, toxunmayın, amandı.

Eşq uca bir məqamdı, dərin dərya, ümmandı,
Eşq çiçəkli bahardı, gah qasırğa-tufandı.

Eşq dünyanın dayağı, səadətin çırağı,
Eşq cənnətin elçisi, eşq düzlüyün sorağı.

Eşq Haqqın qapısıdı, həm dirilik suyudu,
Eşqsiz bu dünyamız da, qaranlıq bir quyudu.

Eşqsiz adam dünyada, ruhsuz, cansız daşdı, bil,
Bu dünyanın özü də eşqsiz viran – boşdu, bil.

Eşq aşiqə ülfətdi, cana-ruha qanaddı,
Dolaşan xəyallarım möcüzələr yaratdı.

Sadənin gözlərində eşqsiz heçdir bu həyat,
Saf eşqdən, məhəbbətdən qüvvət alır kainat!

ARASINDA

Mənmi daralmışam, dünyamı görən?
Ürəyim sıxılır daş arasında.
Gah uşaq oluram, gah ahıl qoca,
Qalmışam ömürlə yaş arasında.

Lənət gəlsin dosta quyu qazana,
Yar olmayıb, yar arası pozana.
Mən nə deyim bəxt-iqbalı yazana?
Qalmışam gərdişin çaş arasında.

Sadə, bizim deyil bitirdiyimiz,
Saysan, saya gəlməz itirdiyimiz.
Beş arşın ağ olar götürdüyümüz,
Olüm var qaş ilə göz arasında.

MƏNİ

Başına döndüyüm can Azərbaycan,
Bəxt piltə eylədi çıraqda məni.
Sənin torpağından çəkdiyim şirə,
Süzülmüş bal etdi dodaqda məni.

Gözəl Qarabağın seyrinə düşdüm,
O Cıdır düzünün mehrinə düşdüm.
Bir dəli sevdanın sehrinə düşdüm,
Günəş isindirdi sazaqda məni.

Bu zəfər ömrümə yaraşıq idi,
Günəş nur saçırdı, Ay işıq idi.
Hamı şair olub, el aşiq idi,
Qoydular bir sirdə-soraqda məni.

İgidlər Vətəni, ərənlər yurdu,
Hər oğlu meydanda alınmaz ordu.
Dolandı dağları Türkün Bozqurdu,
Yazdılar tarixə varaqda məni.

Sadəyəm, qayıtdı gedən torpağım,
Qovuşdu bir-birnə aranım, dağım.
Ucaldı göylərə uca bayrağım,
Bülbülə döndərdi budaqda məni,
Günəş isindirdi sazaqda məni.

DƏRDİMƏ BİR ƏLAC TAPA BİLMİRƏM

Özümdən deməyə gəlməyir dilim,
Yaman ağır keçir hər ayım, ilim,
Fələyin qəsdi nə, mən hardan bilim?
Dərdimə bir əlac tapa bilmirəm,
İlham səməndini çapa bilmirəm.

Sanki bir sarayam, uçub divarım,
Daş altında qalıb dövlətim-varım.
Günü -gündən artır dərdim-azarım,
Dərdimə bir əlac tapa bilmirəm,
Dərddən aralanıb qopa bilmirəm.

Kimsə yaxınlaşıb çatmayır dada,
Bəxt də məndən küsüb, yanaşıb yada.
SərinGül Sadəyəm, bütün dünyada,
Dərdimə bir əlac tapa bilmirəm,
Könül körpüsünü yapa bilmirəm.

DÖZƏMMƏRƏM AYRILIĞA – BU DAĞA

Daş üstə də mən göyərib bitərəm,
Yax lələyi, çağır hova, yetərəm.
Lal qəfəsdə bülbül kimi ötərəm,
Qoyma məni gözlərindən uzağa,
Dözəmmərəm ayrılığa – bu dağa!

Göy üzündən Günəş kimi baxaram,
Çən-dumanın sinəsini yaxaram.
Qaranlıqda şimşək kimi çaxaram,
Şair könlüm əgər düşsə sazağa,
Dözəmmərəm ayrılığa - bu dağa!

SərinGülün əzabları ağırdı,
Hara baxdım, səsin məni çağırdı.
Arzularım yağış kimi yağırdı,
Unutma, gəl, canım sənə sadağa,
Dözəmmərəm ayrılığa – bu dağa!

DEDİN

Ötüşdü ömrümüzdən aylar, illər, fəsillər,
İlqarında qalmadın, gəlmədi səndən xəbər.

Göründü başdan-başa getdiyin yol, iz, cığır,
Sən dönük bir adamsan, əyrini düz də dedin.

Ömür axdı, üzüldü, hey mənə gözlə dedin,
Səbir et, qalmayıb ki, karvanın düzdə dedin.

Sən yandıran od oldun, oxu min yerdən vurdun,
Yalan-yanlış uydurub, boş, quru söz də dedin.

Qırıldı ümidlərim ümidsizlik içində,
Qarsaladın alovda, yanıb qal közdə dedin.

Əhdim, eşqim, murazım boranlı qışa döndü,
Çəmənlər çiçək açar, darıxma, yazda dedin.

Eh, Sadənin könlündən keçənləri bilmədin,
Mənasız sözlərini susmayıb yüz də dedin!

ÇAL ASTA-ASTA

Dindir qara sazı, can dədəmoğlu,
Telləndir, gülləndir, çal asta-asta.
Göstərib ellərə sən hünərini,
İlhamdan badəni al asta-asta!

Xatırlat o anda çəkilən qəmi,
Eşqin atəşinə yanan Kərəmi.
Çalınsın Zarıncı, dinsin Dilqəmi,
Süzülsün dəhandan bal asta-asta!

Sazla işıq saçsın sözün çırağı,
Zülmət nura dönsün bu axşam çağı.
Ruhunla qaynasın eşqin bulağı,
Toxunsun telinə tel asta-asta!

Zəlimxandan söylə, onu yad eylə,
Hicran, intizarı çalış bad eylə.
Bahar bayramıdı, könül şad eylə,
Keçmişə körpünü sal asta-asta!

Elmin zirvəsinə çatan qardaşım,
Səninlə fəxr edir hər vətəndaşım.
Sadəyəm, adınla ucalıb başım,
Danış, qoy durulsun hal asta-asta!

VƏTƏN

"Şəhid ölməz, yurd bölünməz" deyirlər,
Olsun torpağına can qurban, Vətən.
Polad Həşimovtək generalın var -
Döyüş meydanında qəhrəman, Vətən!

Düşmənə meydanda o, quyu qazdı,
Hər çaldığı zəfər bir tarix yazdı.
Analar istəyi tək bir murazdı,
Görməsin torpağın bir də qan, Vətən!

Sadə, Şəhid ruhu göyə ucaldı,
Cənnətə əbədi məskənin saldı.
Rəbbin də, xalqın da gözündə oldu,
Polad generalın sultan, xan, Vətən!

ƏZİZ DAYIMOĞLU MƏHƏMMƏDƏLİ

Filologiya elmləri doktoru rəhmətlik
Məhəmmədəli Mustafayevə

Gənclikdən tutmuşdu elmin yolunu,
Nura qərq etmişdi sağı-solunu.
Təhsilə açmışdı əlin-qolunu,
Əziz dayımoğlu Məhəmmədəli.

Nəsib Abid dostu çəkir acını,
Deyir tez itirdim başım tacını.
Ağlatdı elini, qardaş-bacını,
Əziz dayımoğlu Məhəmmədəli.

Şair təbiətli bir insan idi,
Böyüyə, kiçiyə mehriban idi.
Sevirdi Şəhidi, Qazi – igidi,
Əziz dayımoğlu Məhəmmədəli.

SərinGül Sadəyəm, o dil əzbəri,
İşində-gücündə çaldı zəfəri.
Yazdı necə-neçə elmi əsəri,
Əziz dayımoğlu Məhəmmədəli.

ƏZİZƏ XANIM

Yazdığı şeirlər könül oxşayır,
Sözün qüdrətini ellərə yayır.
Vətən torpağını öz canı sayır,
Çox gözəl insandı Əzizə xanım!

Hörməti-izzəti dildə əzbərdi,
Dünyadan halidi – sinədəftərdi.
Dediyi hər kəlmə inci, gövhərdi,
Bir əhli-ürfandı Əzizə xanım!

Xeyirxahlıq onun arzu-amacı,
Ədəbdən-ərkandan qoyubdur tacı.
Əzəldən olubdu Sadəyə bacı,
Hamıya əyandı, Əzizə xanım!

BƏHİYYƏ XANIM

Şəki mahalının qiraətçi
yazar qızı Bəhiyyə xanıma

Ömrün çiçək açsın yaz yağışında,
Könlümə bəzək vur söz naxışında.
Hər kəs bəlli olar öz baxışında,
Sən Aydan arı ol, Bəhiyyə xanım,
Sulardan duru ol, Bəhiyyə xanım.

Dünyanı dolaşır Şəki atlası,
Kəlağayı, şalı, xalı-xalçası.
Ürəyi söz gülü, çiçək xonçası,
Alidən ali ol, Bəhiyyə xanım.
Ürəyi dolu ol, Bəhiyyə xanım.

Dünyanın sevinci, dağca dərdi var,
Yamanı, namərdi, həm də mərdi var.
Beşə çatmaq üçün yolun dördü var,
Sevgidən halı ol, Bəhiyyə xanım,
Arının balı ol, Bəhiyyə xanım.

Sadəyəm, ömründən gen olsun qada,
Baş əymə düşmənə, sirr vermə yada,
Dünyadan kamın al, yetiş murada,
Sən haqqın yolu ol, Bəhiyyə xanım,
Tanrının qulu ol, Bəhiyyə xanım.

SOLMAZIN

Aşıq Solmaz Kosayevaya

Dindirir sinədə sədəfli sazı,
Sədası yayılir elə Solmazın.
Sazla salamlayır baharı, yazı,
Açır hər çəməndə gülü Solmazın.

Yaşadir ellərin məhəbbətini,
Qoruyur dostluğun saf niyyətini.
Tanıdir, ətrini, ülviyyətini,
Bəzənir solmayan teli Solmazın.

Dinir el ruhunda, sevgi səsində,
Qaynar bulaqların zümzüməsində.
Haqqın vergisi var od nəfəsində,
Gözündən süzülür seli Solmazın.

Sadənin könlünü gətirir dilə,
Sinəsi bənzəyir gövhərə, lələ.
Qarşıda bir dünya ömür var hələ,
Yetişsin göylərə əli Solmazın.

KAMANDAR

Aaşıq Kamandar Lətifoğluna

Sizin dağlar bizim dağlar deyilmi,
Nə dönmüsən Süleymana, Kamandar?
Söylə, bəlkə aramızı vuran var?
Üzün dönüb bizdən yana, Kamandar.

Arzumdur həmişə gətirsin baxtın,
Bizə ayırmağa yoxdumu vaxtın?
Bəlkə biz bilmirik, ucadı taxtın?
Sən də döndün Şeyx Sənana, Kamandar.

Əyriylə işim yox, düzlə oynama,
Əlini yandırar, közlə oynama.
Sadəyəm, gəl sazla, sözlə oynama,
Sədan çatar Alosmana, Kamandar.

BAHARIN ƏTİRLİ ÇİÇƏYİSƏN SƏN

Qardaşım balası deyirəm sənə,
Bu aləm heyrandı gözəlliyinə.
Zamirə, çatasan hər istəyinə,
Könlümün, gözümün mələyisən sən.

Atan Mahir olub, elin ustadı,
Hər yerdə fəxrlə çəkilir adı.
Gecəyə ciraqdı qəlbinin odu,
Borcali elinin gərəyisən sən.

Dosta sədaqətli, etibarlısan,
Mehriban, gülərüz, könlü varlısan.
Ilqarda, vəfada şah vüqarlısan,
Ana yurdumuzun bəzəyisən sən.

Könül vüsalına nəğmələr qoşar,
Sonsuz arzularım sərhədlər aşar.
Yaxşılar tarixdə əbədi yaşar,
SərinGül Sadənin ürəyisən sən.

BİLMƏDİ

Çoxları dünyaya nabələd gəldi,
Neçədi ömrünün sanı, bilmədi.
Onu xəlq eləyən Allahın bir gün,
Alacaq verdyi canı, bilmədi.

Adam var qudurdu, bəxtə güvəndi,
Vədəyə aldandı, vaxta güvəndi.
Şəhərlər dağıtdı, taxta güvəndi,
İçəcək tökdüyü qanı, bilmədi.

Könlüm, eşqə güvən, eşq Aydan arı,
Nəyinə lazımdı dünyanın varı?
Bu dünyada atan vəfalı yarı,
Gecəni, gündüzü, danı bilmədi.

Sadə, etibar yox aya, nə ilə,
Vaxtın qədrini bil, vermə sən yelə.
Hələ bu dünyada bir kəs də belə,
Ömrün nə olacaq sonu, bilmədi.

MİRVARİD DİLBAZİ

Doğuldu Qazaxda dağ çiçəyitək,
Şeriylə zirvəyə qalxdı Mirvarid.
Gözünə nur bilib Azərbaycanı,
Dünyaya boylanıb, baxdı Mirvarid.

Ömrü-günü Vətən oldu, el oldu,
Dərdi-səri Göyçə adlı göl oldu.
Həsrətindən bir dəlisov sel oldu,
Arazın qoynuna axdı Mirvarid.

O, sadə dolandı, sadəcə geydi,
Nə könül sındırdı, nə qəlbə dəydi.
Haqsızın önündə haqlı söz dedi,
Səmada şimşəktək çaxdı Mirvarid.

Əzbərdən söylədu ali Quranı,
Sevdi Yaradanı, sevdi quranı.
SərinGül Sadənin sözünün canı,
Tayın-bərabərin yoxdu, Mirvarid!

HAQQIN-ƏDALƏTİN BÜRCÜ MİRVARİD

Dünyaya yer verdi könül mülkündən,
Dəryalar gözündə inci Mirvarid.
Ərənlər əlindən bir badə aldı,
Haqqın-ədalətin bürcü Mirvarid.

İlhamla yazılan şeir zay olmaz,
Damladan sel olmaz, axar çay olmaz.
Türkün bir telinə dünya tay olmaz,
Aldıq ermənidən öcü Mirvarid.

Şair var, əlləşir alın təriylə,
Şair var, oynayır gümüş-zəriylə.
Hər zaman xeyirxah əməlləriylə,
Sadə səndən aldı gücü, Mirvarid!

BAĞLIDI

Arzu-xəyallarım beçə balıdı,
Çəməndə çiçəyə, gülə bağlıdı.
Mən ki, sərrafıyam dəyərli sözün,
Ürəyim bir şirin dilə bağlıdı.

Minirəm həmişə xəyal atına,
Sığmıram dünyanın üst, nə altına.
Qalxıram göylərin yeddi qatına,
Görürəm ki, ömrüm felə bağlıdı.

Ey Sadə, bu dünya bir gülüstandı,
Cənnət misalıdı, ağıl çaşandı.
Vətənrərvər insan - düz danışandı,
İgid yurd sevəndi, elə bağlıdı.

BELƏSİNDƏN SAXLASIN

Gəlin var ki, əri kötük, tir eylər,
Əməliylə öz adını kir eylər.
Paltar yuyar, ağ-qaranı bir eylər,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, bir tayfanı dolayır,
Ona-buna quyruğunu bulayır.
Şirə dönüb evdə meydan sulayır,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, ər başına daş olar,
Gəlin var ki, ər ağzına aş olar.
Gəlin var ki, tülkülükdə baş olar,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, atlaz yorğan sırıyar,
Gəlin var ki, ərə yalan sırıyar.
Gəlin var ki, əri yuntək darayar,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, hər nə desə, xoş deyər,
Gəlin var ki, bir deyənə beş deyər.
Gəlin var ki, yek atanda şeş deyər,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, yıxıq evin dirəyi,
Gəlin var ki, çoxdu fitnə-kələyi.
Gəlin var ki, tapdalayır çörəyi,
Allah bizi beləsindən saxlasın.

Gəlin var ki, ar-namuslu, həyalı,
Sadə baxıb yetərincə zövq alı.
Gəlin var ki, əli zoğal payalı,
Allah bizi beləsindən saxlasın!

XƏSİS

Dediyim dərs olub bil ki, coxuna,
Məsləhətim budur, getmə yaxına.
Düşərsən sel-suya, güclü axına,
Keçmə cığırına, kim ki, xəsisdi.

Xəsis çıxa bilməz sudan da payı,
Bilməz bacı-qardaş, nə əmi-dayı.
Tamahda tapılmaz heç onun tayı,
Güvənmə xəsisə, pisdən də pisdi.

SərinGül tez tutsun qoy ona yası,
Salam belə qıymaz üzün qarası.
Bir şeyi verməklə yoxdu arası,
Alıb qoparmağa hazır, hərisdi!

GÖRMƏDİM

Dünya, səndən kim inciyər, kim küsər?
Gözəlliyin min möcüzə, min əsər.
Hey dolandım mən sinəni sərasər,
Bezən gördüm, əlin üzən görmədim.

Haqqı sevib, Haqqa sarı süründüm,
Günəş kimi al şəfəqə büründüm.
Səni gözəl görüb, gözəl göründüm,
Səntək aşıq doğru-düzən görmədim.

Şölələnsin öz nurunda bu cahan,
Səringüləm, çözələnir vaxt-zaman.
Dərgahında verdim-aldım imtahan,
Sınaqlara məntək dözən görmədim!

AŞİQİYƏM

Nə Əsliyəm, nə Leyliyəm, nə Şirin,
Qulaq aşiqiyəm, göz aşiqiyəm.
Ustad, ariflərdən dərsimi aldım,
Sözdən söz çəkənəm, söz aşiqiyəm.

Qar-boran sevməyən güllü baharam,
Haqqın carçısıyam, yolunda varam.
Buzu əridərəm, odu yararam,
Nahaqqa qəniməm, düz aşiqiyəm.

Buludlar köçünə vəlvələ salan,
Dağın qarı kimi zirvədə qalan,
O dağ vüqarıyla əyilməz olan,
Polad sinələrin öz aşiqiyəm.

Sadəyəm, sürmədim ömrümü hədər,
Həyat mənalıdı yaşamaq qədər.
Hürkək xəyallarım tərlana bənzər,
Ailə, od-ocaq, köz aşiqiyəm!

KƏLAĞAYIM

Şəfəq çələngimsən, göy qurşağımsan,
Günəş kəlağayım, Ay kəlağayım.
Ərkimsən, ədamsan, yaraşığımsan,
Zövqümü dünyaya yay, kəlağayım!

Göylərə qaldırır qürurum məni,
Camalın bəzəyir çölü-çəməni.
Yüz yol keçirmişəm üzükdən səni,
Min şal olmaz sənə tay kəlağayım!

Qədimdən Vətənin Azərbaycandı,
Naxışın, bəzəyin bir gülüstandı.
Eşqinin oduna SərinGül yandı,
Ay qıza, gəlinə pay kəlağayım,
Günəş kəlağayım, Ay kəlağayım!

SƏN MƏNİM DÜNYAMI ETMİSƏN ZİNDAN

Sən mənim dünyamı etmisən zindan,
Dərd əyir belimi, bil ki, hər zaman.
Sənin baxışının soyuqluğundan,
Səyriyən bu qönçə dodaqlarımmı?

Şimşəyəm - göylərin bağrını dələn,
Əsliyəm – sədası alovdan gələn.
Leyliyəm – fəryadı ərşə yüksələn,
Sinəmi dağlayan eşq dağlarımmı?

Sadəni tapşırdın əsən yellərə,
Eşqinin tacını atdın sellərə.
Ruhum müjdə verdi açan güllərə,
Həsrətdən saralan yanaqlarımmı?

İÇİMDƏ BİR DÜNYA VAR

İçimdə bir dünya var, zülmətə şəfəq saçır,
Torpağı ləl-gövhərdi, daşında güllər açır.

İçimdə bir dünya var, pətəkli balnan dolu,
Özü Tanrı quludu, önündə Haqqın yolu.

İçimdə bir dünya var, ümid, inam ölməyir,
Könlümün gözü nurdu, pislik nədi bilməyir.

İçimdə bir dünya var, dünyaların ən xası,
Rəbbinə üz tutanın sönməz əldə çırası.

İçimdə bir dünya var, min naxışlı, ilməli,
Ağzı xeyir-dualı, dili xeyir kəlməli.

İçimdə bir dünya var, həsrət-kədər ahı – eşq,
Rəiyyət aşiqlərdi, iki dünya şahı – eşq.

İçimdə bir dünya var, suları abi-kövsər,
Çəmənlərdə çiçəyin ətri sanki müşk-ənbər.

İçimdə bir dünya var, adamları nur, ipək,
Elə bil göydən enib, hər birisi bir mələk.

İçimdə bir dünya var, bu dünyayla işi yox,
Nə var istər, nə dövlət, könlü dolu, gözü tox.

İçimdə bir dünya var, dağları düzüm-düzüm,
Əridər orda qarı, Sadəyəm, odum-közüm!

DÜŞDÜM

Bəxtim gətirmədi lap əzəlindən,
Yandım, külüm çıxdı nadan əlindən.
Sarsıyıb titrədi can təməlindən,
Bir daşlı-kəsəkli güzara düşdüm.

Gəlmədi dostların səsi-sorağı,
Tərifi görmədim, aldım qınağı.
Kəsildi arzumun qolu-budağı,
Canımdan usanıb, azara düşdüm.

Yalançı, yaltaqla doldu hər tərəf,
Ad-san itib getdi, qalmadı şərəf.
SərinGüləm, bildim, dərd edilmir dəf,
Səs-ünüm yüksəldi, ah-zara düşdüm.

CANIMI XALQIMA QURBAN ELƏRƏM

Yenə qınayaqmı fani dünyanı?
Yaramazın biri alıb dünyanı.
Gələnə-gedənə deyir hədyanı,
Mənsə rahatlanıb dinclik tapmıram.

Yoxdu dərdə yanan, yüz də soraqla,
Sən onu görməzsən, axtar çıraqla.
Oturub durmuram acgöz, yaltaqla,
Onları dinləyib yoldan sapmıram.

SərinGüləm, dərdə dərman dilərəm,
Hamını dost, yoldaş, yaxın bilərəm.
Canımı xalqıma qurban elərəm,
Tərif, yaltaqlıqdan saray yapmıram!

GƏRAYLILAR VƏ BAŞQA ŞEİRLƏR

DAĞLAR

Heç yadımdam çıxmayırsan,
Sən ay dağlar, sən ay dağlar.
Ətəyin gül, başın duman,
Dərələrin çən, ay dağlar!

Əsirmi de, səhər mehin,
Düşübmü gül üstə şehin?
Görünürmü qövs-qüzehin,
Gəzəmmirəm gen, ay dağlar!

Düzülübdü dərd dal-dala,
Karvanımdan salma dala.
Gəl, Sadəni sən daldala,
Əylə məni sən, ay dağlar!

ŞİNDİ

Dağlarmızın sən başısan,
Elin-günün sirdaşısan.
Ərənlərin yoldaşısan,
Qoyma düşəm dara, Şindi!

Gül-çiçəyin cana dərman,
Ətəyindi yaşıl orman.
Gözəlliyin Haqdan fərman,
Vüqarlısan qara Şindi!

Bu dünyanın dərdi bitməz,
Kim deyir ki, gələn getməz.
Əlim çatmaz, ünüm yetməz,
Sadə həsrət yara, Şindi!

YAYLAQDA

Yenə güllər düzə çıxır,
Bizim yaylaqda, yaylaqda.
Gur bulaqlar gözün sıxır,
Bizim yaylaqda, yaylaqda.

Gül-çiçəklər açır təzə,
Al lalələr çıxır dizə.
Yer veririk saza, sözə,
Bizim yaylaqda, yaylaqda.

Hey gəldikcə tütək səsi,
Kəkliklərin şən nəğməsi.
Artır yaşamaq həvəsi,
Bizim yaylaqda, yaylaqda.

Çobanlar erkən dururlar,
Sürüyə arxac qururlar.
Qartallar da qıy vururlar,
Bizim yaylaqda, yaylaqda.

Qız, gəlinlər qoşa gəlir,
Sürmə çəkir qaşa gəlir,
Sərin Gül də çuşa gəlir,
Bizim yaylaqda, yaylaqda.

BİZİM YAYLAQ

Başdan-başa tamaşadır,
Bizim yaylaq, bizim yaylaq.
Qoynunda ellər yaşadır,
Bizim yaylaq, bizim yaylaq.

Son baharda güllər solur,
Qış gələndə qarla dolur.
Yazı, yayı cənnət olur,
Bizim yaylaq, bizim yaylaq.

Sinəsi behişt bağıdır,
Vüqarı Şindi dağıdır.
Yağılara göz dağıdır,
Bizim yaylaq, bizim yaylaq.

Dörd bir yanı dağ, dərədir,
Dərdimizə o çarədir.
Gəncliyimdən xatirədir,
Bizim yaylaq, bizim yaylaq.

Duyğularım dönür selə,
Şeirlərim düşür dilə.
İlham verir Sərin Gülə,
Bizim yaylaq, bizim yaylaq.

GÖZƏLLİYİN TANRI PAYI

Səndən qeyri bir kimsəyə,
Uyammaram, uyammaram.
Dodaq baldı, dilin şəkər,
Doyammaram, doyammaram.

Gözəlliyin Tanrı payı,
Sən bir Leyli, Şirin tayı.
Sənsiz keçən günü, ayı,
Ömrə-günə sayammaram.

Gəl, Sadəyə az qəsd eylə,
Məhəbbətdən bir söz söylə.
Gözlərinlə gül, məst eylə,
Oyanmaram, oyanmaram!

TAPIR MƏNİ

Axtarmayın mərdimazar,
Özü gəlib tapır məni.
Əli çatmır, ünü yetmir,
Sözü gəlib tapır məni.

Keçib gedər görsə darda,
Gəlib çıxar, olsam harda.
Yansa canım atəş-narda,
Bəzi gəlib tapır məni.

Tezcə düşdü saçıma dən,
Dərsim aldım mən vəlidən.
Hey qaçıram bir dəlidən,
Yüzü gəlib tapır məni.

QÜRBƏTDƏ QALAN KƏSİN

Vətənsiz yanar canı,
Qaralar tez-tez qanı.
Çəkilməz adı-sanı,
Qürbətdə qalan kəsin!

Məqsədə çata bilməz,
Dərdini ata bilməz.
Yanğısı yata bilməz,
Qürbətdə qalan kəsin!

Gör nələr çəkər başı,
Qəm olar yar-yoldaşı.
Qurumaz heç göz yaşı,
Qürbətdə qalan kəsin!

Yuxular yozan olar,
Dərdləri yazan olar.
Dili də ozan olar,
Qürbətdə qalan kəsin!

Yad eli yaxşı qanar,
Sadə hey qərib anar.
Özünü dostu sanar,
Qürbətdə qalan kəsin!

BUDUR ARZU-GÜMANIM

Eşqin üzü dönməsin,
Eşqin közü sönməsin.
Elə edək bir kəsin,
Eşqinə söz gəlməsin.

Yaddan çıxmır igidlər,
Çoxdu buna şahidlər.
Fəda oldu Şəhidlər,
Heç insanlıq ölməsin!

Dünya mənim deyən kəs,
Sinəsinə döyən kəs,
Yetim malı yeyən kəs,
Nə deyib, nə gülməsin.

Kim çıxır din imandan,
Seçilməyir şeytandan.
Uzaq duran Qurandan,
Rəhmət nədir bilməsin.

Budur arzu-gümanım,
Allah olsun hayanım.
Tezcə alsın qoy canım,
Sadə sözün silməsin!

İÇİNDƏ

Yaxşılar itə bilməz,
Yamanların içində.
Ömür sürmək çətindir,
Gümanların içində.

Çölləri ceyran bəzər,
Səmada qartal süzər.
Böyük gəmilər üzər,
Ümmanların içində.

Ömrü hədər sürmədim,
Pisə könül vermədim.
Mən özümü görmədim,
Yalanların içində.

Dərdlərimi danmışam,
Yurdu qiblə sanmışam.
Səməndərtək yanmışam,
Yananların içində.

Yatma, Sadə, oyaq ol,
Yol göstərən mayak ol.
Bu millətə dayaq ol,
Qananların içində.

DEYİM DÜNYA BİZİMDİ

Göy üzündə göy bulud,
Bir bax, düzüm-düzümdü.
Çiçəkdən-güldən gözəl,
Əsmər gülər üzümdü.

Elimdən ilham alan,
Bu aləmə səs salan.
Əbədi yadda qalan,
Bayatımdı, sözümdü.

Gülüm, demə eşq yalan,
Eşqsiz könül bir talan.
Ürəklərə köz salan,
Bir cüt qara gözümdü.

Eşqimizə qoyaq qol,
Ömürlük həmdəmim ol.
Məhəbbətə gedən yol,
Mənim yolum-izimdi.

Sadə deyər, belə dön,
Yağmur olub selə dön.
Sən Vətənə, elə dön,
Deyim dünya bizimdi!

UDUZMADIM GƏRDİŞƏ

Yaxşı olmaq istədim,
Könül almaq istədim.
Yadda qalmaq istədim,
Xeyir işə başladım!

Mənə tələ qurdular,
Ürəyimi qırdılar.
Aşkar-pünhan vurdular,
Şeytanları daşladım!

Salsalar da təşvişə,
Uduzmadım gərdişə.
SərinGüləm, həmişə,
Yamanları boşladım!

GÖZLƏMƏ

Öz ocağın, közün olsun,
Deməyə bir sözün olsun.
Elm-ürfanda gözün olsun,
Təkcə dövlət-var gözləmə!

Siz dinləyin məni bəylər,
Aqil sözə əməl eylər.
Ağılsıza öyüd neylər?
Sən söyüddən bar gözləmə!

Sadə ortaq el dərdinə,
Vurulubdu insaf-dinə.
Kim bağlanıb qeybət, kinə,
Ondan namus-ar gözləmə!

DEYİL

Dəli könlüm, nə gəzirsən?
Dağlar bizim dağlar deyil.
Quruyubdu ağacları,
Bağlar bizim bağlar deyil!

Bulud günü daldalayıb,
Ömrü-günü dərd talayıb.
Sinələrdə od qalayıb,
Soruş, gör kim ağlar deyil?!

Sadə, arzu qatar-qatar,
Yaxşılığa de, nə çatar?
Pis yaxşıya hey daş atar,
İndi həmin çağlar deyil!

DE, MƏNDƏN NƏ İSTƏYİRSƏN

Dağın daşı, yolun daşı,
Bir ki, deyil bil ey naşı.
Ay başının olum daşı,
De, məndən nə istəyirsən?

Böhtan da sən, yalan da sən,
Satan da sən, alan da sən.
Bir an dərdə qalan da sən,
De, məndən nə istəyirsən?

Gəl yaxamdan əlini çək,
Sadə deyər, dilini çək.
Öz təpənə külünü çək,
De, məndən nə istəyirsən?

YAR AĞLARAM, YAR AĞLARAM

Olsa belə dəyanətim,
Vardı mənim şikayətim.
Çox qəmlidi hekayətim,
Yar ağlaram, yar ağlaram,
Olub dünyam dar, ağlaram!

Yaralarım düzüm-düzüm,
Dözəmmirəm, necə dözüm?
Əlac eylə, budur sözüm,
Yar ağlaram, yar ağlaram,
Edib ahu-zar, ağlaram!

Sadə eşqi daşqın olub,
Qəm-qüssədən çaşqın olub.
Eşq əlindən şaşqın* olub,
Yar ağlaram, yar ağlaram,
Yaman dərdim var, ağlaram!

* - sərsəm

SÖZ VAR

Söz var – sözdən söz çəkər,
Söz var – sözdən köz çəkər.
Söz var – üzü ağ eylər,
Söz var – dərdi dağ eylər.
Söz var – qaldırar yükü,
Söz var – tərpətməz tükü.
Söz var – yeri baş eylər,
Söz var – başa daş eylər.
Söz var – dərya-ümmandı,
Söz var – qardı-borandı.
Söz var – tacın üstə ləl,
Söz var – işə bir əngəl.
Söz var – sözün qalası,
Söz var – başın bəlası.
Söz var – qoşun durdurar,
Söz var – qoşun qırdırar.
Söz var – dildə, ağızda,
Söz var – qalıb kağızda.
Söz var – cənnət qoxulu,
Söz var – ölüm yuxulu.
Söz var – sözün bəhəri,
Söz var - əqrəb zəhəri.
Söz var – elin ağzında,
Söz var – gəda qızında.
Söz var – kamanda oxdu,
Geriyə yolu yoxdu!

YAXŞILIQ

Adam oğlu, bax, yaxşılıq
Qalıb, ərən izindədi.
Haqqı deyib, Haqqa varmaq,
Bil, insanın özündədi.

Yaxşılıq heç ölən deyil,
Pis üzünə gülən deyil.
Bir ocaqdı, sönən deyil,
Hikmət onun közündədi.

Ədəb-ərkan bilən azsa,
Biri çaşıb, biri azsa,
Yaxşılığı yaman yazsa,
SərinGül düz sözündədi!

EŞQİN KÖZÜ

Eşqin közü ulduz olub,
Səpələnib göy üzünə.
Gündüz Günəş, gecə Aytək
Şölə saçır yer üzünə.

Arzulardan xana qurdum,
Ümidlərdən naxış vurdum.
Küləklərdən xəbər sordum,
Bel bağladım yar sözünə.

Sadə gəzdi bu dünyanı,
El yolunda qoydu canı.
Ağır oldu imtahanı,
Qarsalandı söz közünə!

BİLMƏMİŞƏM

Çərxi-fələk bağça-bağı
Biçib gedib, bilməmişəm.
Neştər vurub, töküb qanı,
İçib gedib, bilməmişəm.

Seyr elədim bu aləmi,
Dünya – dəniz, xəyal – gəmi.
Gül ömrümün rövşən dəmi
Uçub gedib, bilməmişəm.

Qar-borandı eşqin dağı,
Çiçəklənməz sevda bağı.
Sadə nuru axşamçağı
Saçıb gedib, bilməmişəm!

İNSANLAR VAR BU DÜNYADA

Xeyir işi şərə dönən,
Ay-ulduzu, günü sönən,
Ömrünü qəm-qüssə yenən,
İnsanlar var bu dünyada!

Yeyib-içib hey hallanan,
Əyri yolla çox pullanan,
Bir aldadıb, yüz aldanan,
İnsanlar var bu dünyada!

Mən Sadəyəm, sözüm əyan,
Oğul-uşaq, ər danlayan,
Deyiləni tərs anlayan,
İnsanlar var bu dünyada!

GƏLSİN

Vətən, millət, el yolunda,
Şirin candan keçən gəlsin.
Düşmənləri “oy!” demədən,
Alaq kimi biçən gəlsin!

Allah adı dilimizdə,
Atəş yatıb külümüzdə.
Yad qalmasın elimizdə,
Tükü tükdən seçən gəlsin!

Sadə oda pərvanədi,
Əldə dolu peymanədi,
Sevənlərə divanədi,
Eşq badəsi içən gəlsin!

MAHİRDİ

Qızılhacılı şair Mahirə

Duz-çörəkli, safürəkli,
Xoş arzulu, xoş diləkli,
Bağ-bağçalı, gül-çiçəkli,
Şair qardaş Mahirdi, bil.

Xeyirxahlıqdı hər işi,
Oğul dərdi çəkən kişi.
Hey qınayan bu gərdişi,
Qəmə yoldaş Mahirdi, bil.

Sədaqətli, qəlbi təmiz.
Tükənməyən təbi dəniz.
SərinGülə doğma, əziz,
Bir dost-sirdaş Mahirdi, bil!

APARAR

Dərələrdə bitən gülü,
Yağış yağar, sel aparar.
Bəzən isə şax-budağı,
Tufan qopar, yel aparar.

Eşq həyatın mənasıdı,
Min bir dərdin dəvasıdı.
Bu dünyanın qaydasıdı,
Ağız yeyər, əl aparar.

Hey gəzsə də toyda, vayda,
Dərdlərinə olmaz fayda.
Eşitsəniz ölüb Sadə,
Yerdə qalmaz, el aparar!

BU DÜNYADA

Bir göz ağlar, bir göz gülər,
Bu dünyada, bu dünyada.
Bir doğulan yüz yol ölər,
Bu dünyada, bu dünyada.

Nə qədərdi ağrı yenən,
Bəxt ulduzu tezcə sönən,
Yazı, yayı qışa dönən,
Bu dünyada, bu dünyada.

Yaman çoxdu qınaq olan,
Gecə-gündüz fikrə dalan,
Dərd əlindən dəli olan,
Bu dünyada, bu dünyada.

Haqq üstünə kölgə salsın,
Elin-günün zəfər çalsın.
Sadə, yaz ki, sözün qalsın,
Bu dünyada, bu dünyada.

GƏL SƏNƏ BİR SÖZ DEYİM

Gəl sənə bir söz deyim,
Qulağını bəri tut.
Üz-gözündə gül açsın,
Dərdi-qəmi sən unut!

Gəl sənə bir söz deyim,
Yazda yağan yağıştək.
Bir sevgidən danışım,
Onu dinlə alqıştək.

Gəl sənə bir söz deyim,
Ax sinəmdən çay kimi.
Görüşümə gizli gəl,
Gecə xəlvət Ay kimi.

Gəl sənə bir söz deyim,
Sözdə sevinc, qəm də var.
Sevgi saza bənzəyir,
Onda zil də, bəm də var.

Gəl sənə bir söz deyim,
Axan yaşı tez qurut.
Hər bir işdən, bacar sən,
Məhəbbəti uca tut!

Gəl sənə bir söz deyim,
Yandır ümid şamını.
Qurban eylə eşqinə,
Sən də şirin canını.

Gəl bir sənə söz deyim,
Pərvanə ol, oda yan.
Yerə, göyə sığışma,
Sənə gəlsin dar cahan.

Gəl bir sənə söz deyim,
Gül üzünə gün doğsun.
Şəfəq saçsın gündüzə,
Qaranlığı o boğsun.

Gəl bir sənə söz deyim,
Gül-çiçəkdən çox incə.
Eşqə nökər, qul oldu,
SərinGül də ölüncə!

MƏN HEYRANIN OLMUŞAM

Sənə çələng hörürəm,
Bunu bilsin hər kəs də.
Görüşünə gələcəm,
Güləm, bülbül həvəsdə.

Necə ki, bir pərvanə,
Dolanacam başına.
Gətirəcəm baharı,
Yar, ömrünün qışına.

Mən Günəşə bacıyam,
Atəş-odum mindi, min.
Od tökərəm gözümdən,
Sakit durma, danış, din.

Yoxa çıxıb sevincim,
Bulud kimi dolmuşam.
Diqqət eylə bir mənə,
Mən heyranın olmuşam.

Sən Sadənin göz nuru,
Onun şirin canısan.
Sənə müştaq könlümün,
Sultanısan, xanısan!

HAQQ-ƏDALƏT GƏZİRƏM

Haqq-ədalət gəzirəm, çarıq geyib dəmirdən,
Dəmir əsa əlimdə, qorxum yoxdu heç nədən.

Haqq-ədalət gəzirəm, sevinc-şadlıq soraqlı,
Köksü dolu ümidli, əli yanar çıraqlı.

Haqq-ədalət gəzirəm, dayazda, həm dərində,
Arzum budur hər bir iş, qoy olsun öz yerində.

Haqq-ədalət gəzirəm, gördüm deyən olmadı,
Ürəyimdə azca da, ümid-inam qalmadı.

Haqq-ədalət gəzirəm, dərə keçib, dağ aşıb,
Axtarıram qisməti, ormanları dolaşıb.

Haqq-ədalət gəzirəm, özü boyda dünyada,
Aramızda Haqqını, kim alıbdı, sal yada.

Haqq-ədalət gəzirəm, tutub gedəm düz yolu,
SərinGüləm, istərəm, sevindirəm sağ-solu!

OLDUM

Bu sevdanın gözətçisi,
Bir namərdin yarı oldum.
Məhəbbət adlı o bağın,
İlk meyvəsi-barı oldum.

Gəda onu başa tutdu,
Gecə-gündüz daşa tutdu.
Ayırmadı – qoşa tutdu,
O, bəyaz, mən sarı oldum.

Qəlbə yazdım yar adını,
Duymadım vüsal dadını.
Çəkdirdi hicran odunu,
Ocağının qoru oldum.

Sevmədim heç dövlət-varı,
Unutmadım dostu-yarı.
Mərdi görüb Aydan arı,
Özüm sudan duru oldum.

Baxdım Haqqın aynasından,
Qaçdım fələk xətasından.
Sadəyəm, gül butasından,
Şirə çəkən arı oldum!

YAR YARA BAXDI GETDİ

Yar yara baxdı getdi,
Canını yaxdı getdi.
Göylər kimi gurladı,
Şimşəktək çaxdı getdi.

Yar yara baxdı getdi,
Qəlb evin yıxdı getdi.
Göz yaşı selə döndü,
Çaylartək axdı getdi.

Yar yara baxdı getdi,
Biryolluq çıxdı getdi.
Dərdini sapa düzdü,
Boynuna taxdı getdi.

Yar yara baxdı getdi,
Əlini sıxdı getdi.
Bəxtinin dan ulduzu,
Göylərdən axdı getdi.

Eşqinin söndü şamı,
Sadənin yandı canı.
Ömrünün gözəl anı –
Cavanlıq vaxtı getdi.

DEMƏRƏM

Qulu Xaləddinoğluna nəzirə

Bir baxışla yandırmasa,
Mən o gözə göz demərəm.
Mətləbini qandırmasa,
Həsrətimə döz demərəm.

Pardaxlanıb çiçək açsa,
Müşk-ənbərtək ətir saçsa,
Yarı yolda qoyub qaçsa,
Ona doğru-düz demərəm.

Tutdum Haqqa bil, üzümü,
Rəbbimdən aldım dözümü.
Mən Sadəyəm, son sözümü,
Bir deyərəm, yüz demərəm!

QIZI

Ay biinsaf, tanıdınmı,
Saçında ağ şanə qızı?
Bir zamanlar səni sevib,
Dolaşan divanə qızı.

Sevda "əkdim", "gül" bitmədi,
Ayım, ilim xoş ötmədi.
Duman gəldi, çən getmədi,
Saldın min gümana qızı.

Ayaq açdım yad ellərə,
Düşdüm ağıza-dillərə.
Nədən saldın sən çöllərə,
Döndərdin ceyrana qızı.

Bu sevgidən, de, nə güdüb?
Yarı yolda qoyub gedib,
Qəlb evini talan edib,
Qoyduğun viranə qızı.

Qəlbi bulaq kimi təmiz,
Duyğuları coşğun dəniz.
Dosta sadiq, xətri əziz,
Sadətək mərdanə qızı!

YARIN YADI ANDIRDI

Sən gözəlsən yüzündən,
Xəbərin yox özündən.
Öpdüm lalə üzündən,
Dodağımı yandırdı!

Sənsiz alı neylərəm,
Dövlət-malı neylərəm?
Canı fəda eylərəm,
Eşqin bunu qandırdı.

Dəli rüzgar tərs əsdi,
Qasırğa yol-iz kəsdi.
Sadə, çəkmə ah, bəsdi,
Yarın yadı andırdı.

PAPAQ

Alıbdı aran-dağı,
Koroğlunun sorağı.
Misri qılınc əlində,
Başda qara papağı.

Düşmənə oldu yağı,
Tərpətdi daşı-dağı.
Dillərdə dastan oldu,
Qaçaq Nəbi papağı

Papaq qeyrət, papaq ar,
Papaq bizə iftixar.
Qadınlara kəlağay,
Ərə papaq yaraşar.

Göz qarası, göz ağı,
Ardı kişi papağı.
İgidləri görəndə,
Qorxub qaçıb çox yağı.

Ərən oğlu bir ərdi,
Kişi meydanda nərdi.
Qara papaq başında,
Sanki Aydı, ülkərdi.

AĞLAMA, QARDAŞ, AĞLAMA

Hər gecənin bir danı var,
Ağlama, qardaş, ağlama!
Yerin, göyün sultanı var,
Ürəyimi sən dağlama,
Ağlama, qardaş, ağlama!

Uca dağda duman olar,
Bədəsillər yaman olar.
Zaman bizim zaman olar,
Gülər Göyçə, yas saxlama,
Ağlama, qardaş, ağlama!

Yoxdur insaf-mürvət demə,
Təbriz demə, Dərbənd demə.
Dərddən betər var dərd demə,
Araz kimi sən çağlama,
Ağlama, qardaş, ağlama!

Sən ağlasan, zaman ağlar,
Sazım ağlar, kaman ağlar.
Bütun külli-cahan ağlar,
Hər yetənə bel bağlama,
Ağlama, qardaş, ağlama!

Eşit Sadə nələr deyir,
Şeriyyatdan libas geyir.
Səndən ötrü dərd-qəm yeyir,
Dərd üstünə dərd çulğama,
Ağlama, qardaş, ağlama!

NEYNİM

Gül əkdim, tikan bitdi,
Ay dolandı, il ötdü.
Yar məndən küsüb getdi,
Yandırıb-yaxdı, neynim?

Yaxınlaşdı, lal oldu,
Uzaqlaşdı, bal oldu.
Ürəyim xal-xal oldu,
Qıyğacı baxdı, neynim?

Gülüşü ağ yağışdı,
Ömrə-günə naxışdı.
Gözlərimiz baxışdı,
Şimşəklər çaxdı, neynim?

Bilmədim yer, göy nədi,
Bağrım başı göynədi.
Ev-eşiyə dəymədi,
Qəlb evim yıxdı, neynim?

Dərd üstümə yeridi,
Arxasınca sürüdü.
Ömür şamtək əridi,
Bilmədim vaxtı, neynim?

Gələn zaman güllü yaz,
Bülbül eylər gülə naz.
Bu dünyada gülən az,
Ağlayan çoxdu, neynim?

Batma günaha, Sadə,
Sən bax sabaha, Sadə.
Söyləmə daha, Sadə,
Mən belə bəxti neynim?

ƏRDOĞANIM

Türk elləri intizarda,
Göyçə gölü qalıb darda.
Yoxdu tayın etibarda,
Türkəm, Türkə qaynar qanım,
Yaşa, yaşa Ərdoğanım!

Hər addımın zəfər olsun,
Nə bir böhtan, nə şər olsun.
Günəş doğsum, səhər olsun,
Olmasın heç ah-amanım,
Yaşa, yaşa Ərdoğanım!

Zəfərinə Sadə qurban,
Yanındadı Azərbaycan.
Vədə çatdı, yarat Turan,
İlham ilə sənsən canım,
Yaşa, yaşa Ərdoğanım!

BİLİN

Eşq yaşamdı, bir dünyadı,
Eşqsiz həyat boşdu, bilin.
Bir ürəkdə eşq yoxdusa,
Həmin ürək daşdı, bilin.

Odur hər anda gərəyin,
Süfrəndə duzun, çörəyin.
Eşqi olmayan ürəyin,
Hər bir fəsli qışdı, bilin.

Bir aləmdi eşqli çağlar,
Eşq yarası sinə dağlar.
Kərəm yanar, Əsli ağlar,
Aşiq gözü yaşdı, bilin.

İlqarına dönük çıxsan,
Yarı qoyub yana baxsan,
Qəlb evini əgər yıxsan,
Zəhər dadan aşdı, bilin.

Qəlb dənizdir, eşq də ada,
Çalış onu vermə bada.
Əvəzi yoxdur dünyada,
Göz üstündə qaşdı, bilin.

Eşq bağçamın əlvan gülü,
Mən onun şeyda bülbülü.
De, kim sevməz şirin dili,
Sadə eşqdə başdı, bilin!

USTAD

Borçalının Ziyəddini,
Gəzir eldə sözün ustad.
Bu dünyadan köçən candı,
Sönməz ruhun közün, ustad.

"Mixəyi"də mehə döndüm,
Gül üstündə şehə döndün.
"Şahsevən"də şaha döndün,
Fərman yazdı sazın, ustad.

Dosta vardı etibarın,
Tükənməzdi düz ilqarın.
Saflıq olub dövlət-varın,
Toxdu könlün, gözün, ustad.

Unutmaz bu ellər səni,
Xoş ətirli güllər səni.
Deyər şirin dillər səni,
Var tarixdə izin, ustad.

Əzəldən belədi həyat,
Ömür dediyin əmanət.
Sadəyəm, nur içində yat,
Cənnətməkan özün, ustad!

MƏN GÖRMÜŞƏM DÜNYANIN HƏR ÜZÜNÜ

Dolanmışam dağı- düzü, aranı,
Çox görmüşəm, İranı həm Turanı.
Can bilmişəm Türk yaşıyan hər yanı,
Mən görmüşəm dünyanın hər üzünü,
Söyləmişəm sözün doğru-düzünü !

Ömür-gündən biraz deyim, əfəndim,
Yağış olub, bu torpağa ələndim.
Atlas geyib al-qumaşa bələndim
Mən görmüşəm dünyanın hər üzünü,
Şad etmişəm insanların yüzünü .

Neçə illər qürbət eldə qalmışam,
Dərin-dərin xəyallara dalmışam.
Sərin Güləm,yurtdan ilham almışam.
Mən görmüşəm dünyanın hər üzünü ,
Təbəssümə döndərmişəm yüz ünü !

OLAR

Könlüm, sevməyi bacar,
Ömrün-günün xoş olar.
Əgər sevə bilməsən,
Ürəyim bomboş olar.

Sev Allahı, qulu ol,
Haqqa gedən yolu ol.
Dərya kimi dolu ol,
Adın addan baş olar.

Sev dağları, aranı,
Sev kitabı – Quranı.
Sevmə heç vaxt yalanı,
Yalan deyən daş olar.

Sev obanı, eli sev,
Bülbülü sev, gülü sev.
Əldən tutan əli sev,
Sevgin eşqə qaş olar.

Sadə, sən sev ölüncə,
Bəxt üzünə gülüncə.
Şahdan fərman gəlincə,
Haqqın işi beş olar!

ÇATIRAM

Sabah Günəşlə doğub,
Axşam Ayla batıram.
Nə gündüz qərar tapıb,
Nə də gecə yatıram.

Nədən, gülüm, beləsən?
Bir insafa gələsən.
Duymayırsan hələ sən,
Dərdə-qəmə batıram.

Haqlayıbdı qar məni,
Ağladıbdı yar məni.
Sovurub rüzgar məni,
Demə ki, naz satıram.

Çağır, nə var gəlməyə?
Gəlim dərdi bölməyə.
Ölüm – nə var ölməyə,
Yeri, göyü qatıram.

Ruhum gedir o göynən,
Gah şəhərnən, gah köynən.
Aram yoxdu gileynən,
Hər arzuma çatıram.

AĞRIN ALIM

Bəxtim zülmət, eşqim çıraq,
Ruhum, göydə ulduz sayaq.
Axtar məni, eylə soraq,
Əlin üzmə, ağrın alım.

Təzə doğmuş Ayam, gülüm,
Gərilmiş bir yayam, gülüm.
Coşqun axan çayam, gülüm,
Heç gen gəzmə, ağrın alım.

Sadənin öz gümanı var,
Hər mətləbin zamanı var.
Ömrün də çən-dumanı var,
Məndən bezmə, ağrın alım.

YADA SALAQ O GÜNLƏRİ

Gəl, qartopu oynayaq biz,
Yada salaq o günləri.
Sən sevdalı, mən havalı,
Olaq qışın qar gülləri.

Təbiətə açaq ayaq,
Xizək ilə çox oynayaq.
Sürüşməkdən heç doymayaq,
Qaytaraq ötən illəri.

Qoy qar çıxsın dizimizə,
Külək vursun üzümüzə.
Dönüb baxaq izimizə,
Ovuşduraq buz əlləri.

Gəzək çöldə yağa-yağa,
Kənddə gedək bağça-bağa.
Baş çəkərək hər bulağa,
Salamlayaq gözəlləri.

Aramızda ilqar olsun,
Qəlbimizdə bahar olsun.
Sadə, yağan ağ qar olsun,
Eşq göyərdər boz çölləri!

MƏHƏMMƏD NƏBİ EŞQİNƏ

Tanrını fikir eyləyin,
Namaz qılıb zikr eyləyin.
Qismətə şükür eyləyin,
Məhəmməd nəbi eşqinə!

Yol göstərin yol çaşana,
"Dur!" deyin həddin aşana.
Fərq qoymayın bir insana,
Məhəmməd nəbi eşqinə!

Çoxalsın islam ölkəsi,
Gəlsin azanın gur səsi.
Sadənin artsın həvəsi,
Məhəmməd nəbi eşqinə!

AY HƏKİM

Məhərrəm həkimə

Ömür sutək axıb gedir,
Yaxalayır yaş, ay həkim.
Saç ağarır, bel bükülür,
Bir-bir düşür diş, ay həkim.

Cana atəş közdən düşür,
Taqət, təpər dizdən düşür.
Dişsiz gözəl gözdən düşür,
Gəlmir yara xoş, ay həkim.

Dostusan Baş komandanın,
Damarda axır saf qanın.
Öz adı var hər insanın,
Həmişə ol baş, ay həkim.

İnci kimi düz dişimi,
Hər kəs bəyənsin işini.
Yüz eyləsin haqq beşini,
Zirvəli dağ aş, ay həkim.

Sadəyəm, saz ömrü yaşa,
Tükənməz söz ömrü yaşa.
Həmişə yaz ömrü yaşa,
Ol mənə qardaş, ay həkim.

CƏVAHİRİM, LƏL-GÖVHƏRİM

Cəvahirim, ləl-gövhərim,
Mərcan incim, simuzərim.
Dodaqların baldan şirin,
Nəfəsinlə könül gülür.

Borçalıdan ucalmısan,
"Məhsəti"dən yol almısan.
Ürəklərdə iz salmısan,
Zəhmətini elim bilir.

Şeirləşir könlün, gözün,
Gözəlləşir qəlbin, üzün.
Uzaq düşsə dostdan izin,
Ayriliği zülüm bilir.

Sən Sadənin əzizisən,
İnsanların təmizisən.
Cağlayan eşq dənizisən,
Dalğalanan selim bilir.

BƏXT, ODA ATDIN MƏNİ

Üzü aydan arıudı,
Sinəm dağlar qarıydı,
Gözəl yarım varıydı.
Ocaqtək çatdın məni,
Bəxt, oda atdın meni.

Bir ananın qızıydım,
Göyün dan ulduzuydum,
Gözəllərin gözüydüm.
Nə ucuz satdın məni?
Bəxt, oda atdın məni.

Nə sağalan yaram var,
Nə bir yerdən çaram var.
Bax, yarasız haram var?
Hey atıb - tutdun məni,
Bəxt, oda atdın məni.

Getdi, gedənim gəlməz,
Dərdimi kimsə bilməz.
Sadəyəm, üzüm gülməz,
Qəmlərə qatdın məni,
Bəxt, oda atdın məni...

GÖZÜMDƏ SAXLADIM SƏNİ

Heç salmadım nəzərimdən,
Gözümdə saxladım səni.
Həsrətindən elə yandım,
Közümdə saxladım səni.

Dilin şəkər, dodağın bal,
Sinən bəyaz, yanağın al.
Bağlansa da getdiyim yol,
İzimdə saxladım səni.

Sevdim - sevdama bələdim,
Sənsiz quzutək mələdim.
Ömrü ələkdən ələdim,
Özümdə saxladım səni.

Sadə deyər, gedən yarım,
Sağalmadı zədən, yarım.
Mənə yardı Vətən, yarım,
Sözümdə saxladım səni,
Gözümdə saxladım səni.

SÖZDÜ

Bacım, sözdən doğulmuşam,
Anam sözdü, atam sözdü.
Ən ismətli, ən vəfalı,
Sevgilim söz, butam sözdü.

İlhamım, eşqim, həvəsim,
Danışığım, nitqim, səsim,
Havam, suyum, tər nəfəsim,
Ən ləzzətli qidam sözdü.

Laylam, ağım, mahnım, türküm,
İpək koftam, isti kürküm,
Cah-cəlalım, malım-mülküm,
Eyvanım söz, odam sözdü.

Həm düşüncəm, həm xəyalım,
Həm istəyim, həm amalım,
Həm vergülüm, həm sualım,
Nöqtəm sözdü, nidam sözdü.

Yazıb gültək bitirdiyim,
Qazandığım, itirdiyim,
Hərdən dilə gətirdiyim,
Suçum sözdü, xətam sözdü.

Bir işıqdı yanan şamda,
Duaçımdı arzu-kamda.
Səringüləm, son məqamda,
Sağollaşmam, vidam sözdü.

GƏZİRƏM

Ruhum səmalardadı,
Özüm yerdə gəzirəm.
Mən bütün Araz boyu,
Həm də Kürdə gəzirəm.

Lap getsəm də mən hara,
Kökləndim saza, tara.
Qoşulub barmaqlara,
Pərdə-pərdə gəzirəm.

Fırlanır fikrin pəri,
Gah irəli, gah geri.
Əvvəl gəzdiyim yeri,
Dönüb bir də gəzirəm.

Sözdən qoyulub himi,
Kökdədir qəlbin simi.
Sadəyəm, kimliyimi,
Mən şeirdə gəzirəm.

TANRIMIZA ŞÜKÜR EDƏK

Bülbül olaq, cəh-cəh vuraq,
Sevənlərə dayaq duraq.
Sazlı-sözlü məclis quraq,
Bir gün sizdə, bir gün bizdə.

Eyləməyək dili gödək,
Eşq yolunda birgə gedək.
Tanrımıza şükür edək,
Gəl, güc tapaq özümüzdə!

Sənli-mənli budur dilək,
Bağçamızdan dərək çiçək.
SərinGüldən deyək gərək,
Düz olaq hər sözümüzdə!

ULU TANRIM

Adın düşmür dilimdən,
Qurtar zillət-zülmdən.
Tutub mənim əlimdən,
Mövlam, göstər doğru yol.

Həm atasan, həm ana,
Sənlə birgə olana.
Dərd əhlinə - nalana,
Ehsanını eylə bol.

Biz bələndik rəhminə,
Dağlar qədər zəhminə.
Tabe olur hökmünə,
Canlı, cansız, ağac-kol.

Hamı sənə baş əyir,
Kimi səcdə eyləyir.
Kimi mədəd diləyir,
Dərgahına açıb qol.

Sadə yaman gündədir,
Nadan ondan öndədir.
Ümidi tək səndədir,
Ulu Tanrım, kömək ol!

OLSUN

Namus, qeyrət, arlıya,
Elm-ürfandan barlıya,
Dərdli ahu-zarlıya,
Hörmət edən var olsun!

Kim sevmirsə ananı,
Vətən, millət qananı,
Kim incidir atanı,
El içində xar olsun!

Yar gözünü oyanın,
Yarı yolda qoyanın,
Sadəni heç sayanın,
Gen dünyası dar olsun!

QÜRBƏT

Qürbət eldə qalmaq çətin,
Azad nəfəs almaq çətin.
Sən qürbətin çək xiffətin,
Görək rəngin saralmazmı?

Qürbətdə tək olanların,
Qəlbi qəmlə dolanların.
Dərd-azarı bulanların,
Deyin, səbri daralmazmı?

Göz yaşını tökənlərin,
Qürbətdə qəm çəkənlərin,
SərinGülə çəkənlərin
Dağlarını qar almazmı?

HƏR QADIN

Namus, arlı, qeyrətli,
Sədaqətli, şəfqətli.
Mərifətli, hörmətli,
Olmalıdır hər qadın.

Əhdə sadiq, düzilqar,
Səliqəli, təmizkar,
Gülərüzlü, xoşrəftar,
Olmalıdır hər qadın.

Sadə deyir, bunu bil,
Ləyaqətli, şirindil,
Gözəl-göyçək, sanki gül,
Olmalıdır hər qadın.

GƏRƏK

Qadındı, gül butası,
Tanrımızın ətası,
Qadında ən əsası,
Səliqə-sahman gərək!

Şirin söz, düz etibar,
Gülərüz, yaxşı rəftar,
Həm həya, həm namus, ar,
Bir də din-iman gərək!

Qadında eşq-məhəbbət,
Vətənə, xalqa rəğbət,
Sadədən hörmət-izzət,
Böyük tab-təvan gərək!

SÖYLƏYİR

Qonşumuzda bir kişi var,
Vur, dağıt, tala söyləyir.
Ağ yalan edib gerçəyi,
Gedib mahala söyləyir.

Danışıb hərzə-hədyanı,
Vurub mıx-nala söyləyir.
Atdığı güllə özündən,
Qalıbdı dala söyləyir.

Əgər görsə bir xəstəni,
Yenibdi bəla söyləyir.
İşi qalıbdı Allaha,
Çox çətin qala söyləyir.

Mən səsini kəs deyirəm,
O, gəlib hala söyləyir.
- Dünyanın sirri məndədi,
SərinGül bala, - söyləyir.

SAYI ÇOXDU

Gah bir tülkü, gah şir kimi,
Dili duzlu – pendir kimi,
Xasiyyəti təndir kimi
Olanların sayı çoxdu.

Vardır söyən dosta, yara,
Niyyəti pis, qəlbi qara.
Arxamızca toy-nağara
Çalanların sayı çoxdu.

SərinGüldü, edir bəyan,
Dedikləri deyil yalan.
Var-dövlətdə gözü hər an
Qalanların sayı çoxdü.

DEYİR

Heç adı yox yaxşıların,
İndi çoxu olub harın.
Bəs eyləmir yekə qarın,
Gərək filə dönəm deyir.

Bir nəzər sal gic hərifə,
Başlayıbdı boş tərifə.
Bağdaddadı kor xəlifə,
Burda isə mənəm deyir!

Baş ağrıdan başdan aşıb,
Düyün düşüb, ip dolaşıb.
SərinGülün səbri daşıb,
Bir onları yenəm deyir!

ƏRƏNLƏRİN QƏLBİ BİRDİ

Məni dinlə, gəl, ey kişi,
Erkəkdimi, yoxsa dişi,
Fərqlidirsə ov vərdişi,
Şirin adı yenə şirdi.

Sözlərimi sən başa yaz,
Olsa belə qara, bəyaz.
Ya sarışın, yaşı da az,
Ərənlərin qəlbi birdi.

Pirlər çoxdu, bilir hamı,
Çoxunun da var nizamı.
Bəzisinin yoxdu damı,
Ziyarətdi, yenə pirdi!

SÖYLƏYİR Kİ

Yaxşı tanı insanları,
Sevməyən var sazı, tarı.
Çalammayan bir mismarı,
Söyləyir ki, dülgərəm mən.

Namərd olan çox öyünər,
Gileylənər, həm deyinər.
Kim göstərmir mərdlik, hünər,
Söyləyir ki, şir, nərəm mən.

Sadə bunu edir bəyan,
Həddən çoxdu hərzə-hədyan.
Zəri misdən ayırmayan,
Söyləyir ki, zərgərəm mən.

QARDAŞ İSTƏR BACILAR

Bacı qurban qardaşa,
And içərik birbaşa.
Yalvararıq, çox yaşa,
Qardaş istər bacılar.

Qardaş bizə ilhamdı,
Mənim ümid qalamdı.
Balası da balamdı,
Qardaş istər bacılar.

Sadə deyər, ey qardaş,
Ayağına dəyən daş,
Dəyəydi bu başa kaş,
Qardaş istər bacılar!

MƏNİM DƏRDİM

Doğulubdu mənlə birgə,
Gəlin köçüb mənlə bəlkə.
Deyən, olub qara kölgə,
Mənim dərdim, mənim dərdim.

"Pay"ı başı bağlı verib,
Dadlı, duzlu, yağlı verib.
Gizlət deyib ağlı verib,
Mənim dərdim, mənim dərdim.

Mən Sadəyə çox bağlanır,
Quruyuram, o, yağlanır.
Xoş gündən məni qorğanır,
Mənim dərdim, mənim dərdim.

TANIYIRAM BİR KİŞİNİ

Tanıyıram bir kişimi,
Qırıb arvadın dişini.
Allahdan istəyim budur,
Dolaşdırsın hər işini.

Hər yerdə özünü öyür,
Arvadı ağacla döyür.
Rahat qoymur ölüləri,
Onların goruna söyür.

Yoxdu ədəbi-ərkanı,
Yada salır kor şeytanı.
Ölməyi yox, itməyi yox,
Daş, dəmirə dönüb canı.

Pozmayır azca halını,
Tumarlayır saqqalını.
Bir otruma mürtəd oğlu,
Yeyir beş itin yalını.

Oxşarı yox heç kişiyə,
Bənzəyir qara pişiyə.
Sadə deyir qohumlara:
- Onu atın tez eşiyə!

YAXŞI

Yoldaş olsan pis-nadincə,
Ədəbindən bəhs edincə,
Onun ilə yol gedincə,
Yarı yolda qalsan yaxşı!

Xəsis sənə versə şəkər,
Alma onu, zənn et zəhər.
Qapısını açsan əgər,
Başına daş salsan yaxşı!

Bir gün düşsən yaman dərdə,
Sadə deyir sözü bir də,
Ağız açsan sən namərdə,
Gedib kəfən alsan yaxşı!

YAN KEÇƏRLƏR

Bu sözümü sən də sına,
Od düşsə can sarayına,
Kimsə çatmaz harayına,
Baxıb, baxıb yan keçərlər.

İşin-gücün gətirməsə,
Tanrı qismət yetirməsə,
Almasalar səndən nəsə,
Başqa həmdəm, dost seçərlər.

Sadə sevər imanlını,
Çoxlarısa imkanlını.
Əzizlərlər ad-sanlını,
Başına da and içərlər.

DÜNYAMIZIN

Qulağı kar, dili laldı,
İşi-gücü qalmaqaldı.
Saxlanc yeri torpaqlardı,
Yalan, talan dünyamızın!

Rəhmsizdi, amansızdı,
İnsafsızdı, çox qansızdı.
Dərdi hər an cana sızdı,
Yalan, talan dünyamızın!

Sadə batıb göz yaşına,
Başı dəyib hər daşına.
And içməz bil, heç başına,
Yalan, talan dünyamızın!

EY GƏDƏ

Bənzəyirsən bir səyə,
Başlamısan küsməyə.
Tanrım səni tez əyə,
Qara torpaq eyləyə.

Pis əməlin çağlayıb,
Neçə sinə dağlayıb.
Anan səni ağlayıb:
- Yandım, oğul, - söyləyə.

Səringülə, ey gədə,
Gəlib vermə heç hədə.
Fələk səni yox edə,
Boşca papaq əyləyə!

YALNIZ TANRIM OLDU YAR

Çoxuna yemək oldum,
Bal dolu pətək kimi.
Ələdim neçəsini,
Sonunda ələk kimi.

Ağız açdı əyri-düz,
Çoxları çevirdi üz.
İnlədim gecə-gündüz,
Ney kimi, tütək kimi.

Başımda şimşək çaxdı,
Canı yandırıb-yaxdı.
Suyum boş yerə axdı,
Qırılmış səhəng kimi.

Fitnə-fəsad qurdular,
Hey qəsdimə durdular.
Sağıb, sonra vurdular,
Bir sağmal inək kimi.

Sadə ömrü novbahar,
Dərdim şirin – hər nə var.
Yalnız Tanrım oldu yar,
Açıldım çiçək kimi!

GÜL ÜZÜMƏ

Gul üzümə, qoy güvənim özümə,
Gul üzümə, şəkər qatım sözümə.

Gul üzümə, könlüm buzu ərisin,
Gul üzümə, canı atəş bürüsün.

Gul üzümə, dan sökülsün gözümdə,
Gul üzümə, isin eşqin közündə.

Gul üzümə, baxım sənə ölüncə,
Gul üzümə, eşq ülkərim sönüncə.

Gul üzümə, gül üzümdə gül açsın,
Gul üzümə, qəlbim dinib dil açsın.

Gul üzümə, sevinc yaşım sellənsin,
Gul üzümə, könlüm sazı dillənsin.

Gul üzümə, güldən şirə çəkək biz,
Gul üzümə, gəl olaq bal-pətək biz.

Gul üzümə, məhəbbətdə yoğrulum,
Gul üzümə, sevgin ilə doğrulum.

Gul üzümə, qan damarda oynasın,
Gül üzümə, qanım sənə qaynasın.

Gul üzümə, sənə ümid bağlayım,
Gül üzümə, həsrət gözün dağlayım.

Gül üzümə, işıq gəlsin gözümə,
Gül üzümə, nur çilənsin üzümə.

Gül üzümə, SərinGül də gül açsın,
Gül üzümə, eşq ilhama yol açsın.

DURMAZ

Su dolanar çarxa, durmaz,
Axıb gedər arxa, durmaz.
Arxalıya arxa duran,
Arxasıza arxa durmaz!

Coşqun sellər gələr, gedər,
Daş-torpağı yalar, gedər.
Kim bəxtini bular gedər,
"Yellənər, bil, çuxa", durmaz.

Sular axar gildir-gildir,
Ağlayanı çalış güldür.
Sadə qəlbi çiçək-güldür,
Ətrin saçar xalqa, durmaz!

OLDU

Səf-səf oldu qəm qoşunu,
Bürc, hasarım, qalam oldu.
Qoşalaşdı dərdi-sərim,
Nuh tufanı yalan oldu.

Silkələndi dağım-daşım,
Ələndi ömür yaddaşım.
Oda döndü gözdə yaşım,
İz üstə iz salan oldu.

Mən Sadəyəm, yox hayanım,
Zalım fələk tökdü qanım.
Nə vermişdi Yaradanım,
Verdiyini alan oldu,
Dərdim mənə qalan oldu!

SABAHINIZ XEYİR OLSUN

Hər sözü eşq qoxuyanlar,
Eşqdən eşqlə oxuyanlar,
Eşqə çələng toxuyanlar,
Sabahınız xeyir olsun!

İgidlərim, ərənlərim,
Zəfər gülü dərənlərim,
Düşmən yerə sərənlərim,
Sabahınız xeyir olsun!

Adı-sanı dağ olanlar,
Eldə üzü ağ olanlar,
Eşq-ilhamı çağ olanlar,
Sabahınız xeyir olsun!

Xalqı sevib, qeydə qalan,
Yaxşılıqdan körpü salan,
Haqqı deyib, Haqqa varan,
Sabahınız xeyir olsun!

Sadə verər yolunda can,
Adın bizə bir şöhrət-şan,
Zəfər yollu Azərbaycan,
Sabahınız xeyir olsun!

LƏLƏ

Ağlama, qurban yaşına,
Duman gəldi-getdi, Lələ.
Qardaş çatdı qardaşına,
Hicran ömrü bitdi, Lələ!

Açıldı Qarsın yolları,
Qovuşdu həsrət qolları.
Dövranın qiylü-qalları,
Zaman-zaman ötdü, Lələ!

Sadə güldən bal çəkəcək,
Tarix özü qol çəkəcək,
Türk Turana yol çəkəcək,
Vədə gəlib yetdi, Lələ,
Qəm-qüssəmiz bitdi, Lələ!

BAĞBAN BAĞDAN BARIN ALAR

Ellər, gördüm ürək verir,
Ağlar ağlara-ağlara.
Dayaq olub söykənibdi,
Dağlar dağlara-dağlara!

Bağban bağdan barın alar,
Gül-çiçəyə meylin salar.
Şamamalar bəzək olar,
Yaşıl tağlara-tağlara!

Sadə Haqdan aldı sözü,
Gözü seçdi əyri-düzü.
Qoy səsləsin zaman bizi,
Gözəl çağlara-çağlara!

MƏNİ

Bu dünyanın qəm yağışı,
Hara qaçdım, tutdu məni.
Saldı dərdin dəryasına,
Dalğalara qatdı məni.

Çıxan Günəş, sökülən dan,
Agah olun, halım yaman.
Anlamayan yaxşı-yaman,
Qul yerinə satdı məni.

Sadə ahü-zar eylədi,
Hər dərdi nübar eylədi.
Dərd yaşımı car eylədi,
Eldən-elə atdı məni!

DƏDƏM OĞLANLARI

El-obanın dost-yarıdı,
Borçalının vüqarıdı,
Molla Piri nübarıdı,
Ərdi Dədəm oğlanları!

İladimiz ziyalıdı,
Nəslimizin calalıdı.
İnsanların halalıdı,
Sərdi Dədəm oğlanları!

İgid idi o Nəbimiz,
Fəxr edirdik onunla biz.
Qoymayıblar çöksün heç diz
Mərdi Dədəm oğlanları!

Vidadimiz sanki ümman,
Zəkasını bilir cahan.
O, təhsilə veribdi can,
Zərdi Dədəm oğlanları!

Elmar dostu doğru-düzün,
Savadlıdı, çəkmir özün.
Sadə deyir ürək sözün,
Nərdi Dədəm oğlanları!

ŞİRİNDİLLİ GÜLLÜ BACIM

El-obanın sevincidi,
Altun-axça, bir incidi.
Sadaqətdə birincidi,
Şirindilli Güllü bacım!

Olubdu o, sinədəftər,
Elm-ürfandan verir xəbər.
Hər işdə də çalır zəfər,
Şirindilli Güllü bacım!

Əl işləri incə, zərif,
Sadə onu edir tərif.
Hamımıza doğma, şərif[1*],
Şirindilli Güllü bacım,
Gözdə nurum, başda tacım!

[*] - əziz, müqəddəs

OLDUM MƏN

Kədər bitir göbələktək,
Toplamışam ətək-ətək.
Qəm əlində qalanda tək,
Dolu döymüş kol oldum mən!

Çoxalanda biganəlik,
Pulpərəstlik, divanəlik,
Yox olanda mərdanəlik,
Bağlanmış bir qol oldum mən!

SərinGüləm, dərd can alı,
Gördüm dava, qalmaqalı.
Sormadılar hal-əhvalı,
Sellər yumuş yol oldum mən!

ATAM

Adım,
Sanım,
Canım
Atam!

Özüm,
Sözüm,
Gözüm
Atam!

Sərvər,
Zərgər,
Dülgər
Atam!

ANAMIZ

Mələkdi,
Çiçəkdi,
Ürəkdi
Anamız!

Sevməz al,
Qiylü-qal,
Dili bal
Anamız!

Haqdan pay,
Göydə Ay,
Yerdə çay
Anamız!

BAĞLIDI

Göz gözə,
Söz sözə,
Düz düzə
Bağlıdı!

Can cana,
Qan qana,
An ana
Bağlıdı!

El elə,
Sel selə,
Dil dilə
Bağlıdı!

BUNU BİL

Dünya bal,
Kamın al.
İşi al,
Bunu bil!

Bəxti kəm,
Gözü nəm,
Çəkir qəm,
Bunu bil!

Eşit, qan,
Dərdə yan,
Et dərman,
Bunu bil!

Bədnəzər
Göz süzər,
Can üzər,
Bunu bil!

Sadə bir,
Sözü dürr,
Eşqi pir,
Bunu bil!

YAXŞILARA CANIM QURBAN

Zəhər qatma gəl, aşıma,
Çalış çıxma heç qarşıma.
Mən gülərəm boş başına,
Yamanlara qəm dilərəm.

Yaxşılara canım qurban,
Olaram hər dərdə dərman.
Bir arifə gülsə nadan,
Gözlərimdən yaş ələrəm!

Vətən, torpaq, millət deyib,
Dəmir libas – donu geyib,
Tək canıma ordu yenib,
SərinGüləm, ad elərəm!

MƏNİM BACI-QARDAŞIM VAR

Eşq-ilhamı bulaq olan,
Önümdə bir çıraq olan,
Çətin gündə dayaq olan,
Mənim bacı-qardaşım var.

Ustadları yad eyləyən,
Dost qəmini bad eyləyən,
Elm-ürfanda ad eyləyən,
Mənim bacı-qardaşım var.

Borçalıda yaşa dolan,
Yurd-yuvanı yada salan,
Sərin Güləm, qeydə qalan,
Mənim bacı-qardaşım var.

BU DÜNYANIN SONU BƏLLİ

Bürünən kəs al-qumaşa,
Dərdlə-qəmlə durub qoşa,
Başı dəyib daşdan-daşa,
Bu dünyanın sonu bəlli.

Mal-mülkünə düşən talan,
Olub quru yurdda qalan.
Çoxdan-çoxdu ağlar-nalan,
Bu dünyanın sonu bəlli.

Çingiz xanla, Əmir Teymur,
Aləmə səs salan Babur,
Deməyiblər əcələ dur,
Bu dünyanın sonu bəlli.

Şahlıq edən çəkib acı,
Tapılmayıb heç əlacı.
Bir başqası qoyub tacı,
Bu dünyanın sonu bəlli.

Səxavəti Allahdan pay,
Kim olubdu Hatəmə tay?
Sadə çəkər bir vaxt haray,
Bu dünyanın sonu bəlli!

BU DÜNYADAN O DÜNYAYA

Nə bir yol var, nə körpü var,
Bu dünyadan o dünyaya.
Gedən çoxdu, gələn yoxdu,
Bu dünyadan o dünyaya.

Yadda qalar yaxşı-yaman,
Danışılar zaman -zaman.
Təmiz gedək, ey Yaradan,
Bu dünyadan o dünyaya.

Önümüzdə Haqqın yolu,
İncitməyək sağı-solu.
Gedək əli savab dolu,
Bu dünyadan o dünyaya.

Torpaq altda sökülməz dan,
Qaranlıqda durar zaman.
Aparılmaz heç nə, insan,
Bu dünyadan o dünyaya.

Dərdin dili cadar-cadar,
Eylər qəlbi qabar-qabar.
Keçirilməz dövlət, nə var,
Bu dünyadan o dünyaya.

Olma qəlbi, sən gözü dar,
Yamanlığın pis adı var.
Bacar səndə rəhmət apar,
Bu dünyadan o dünyaya.

Sərin Güləm, əhdinə düz,
Qəlbə dəyən demədim söz.
Yol almışam, ey canım, döz,
Bu dünyadan o dünyaya !

MƏNİM GÖZƏL XANIM ANAM

Əsri keçib onun yaşı,
Gör çəkibdi nələr başı.
Köçüb gedib çox sirdaşı,
Qoy oduna yanım, anam,
Mənim gözəl Xanım anam!

Qohumlardı qol-qanadı,
Şairdi bil üç övladı.
Dildən düşmür heç vaxt adı,
Fəxrimizdi canım anam,
Mənim gözəl Xanım anam!

Hər iş yola qoyan olub,
Bu ellərə əyan olub.
Sərin Gülə hayan olub,
Mənim şöhrət-şanım anam,
Mənim gözəl Xanım anam!

GƏLMƏYƏNDƏ

Çıxır inan, candan canım,
Səndən şeir gəlməyəndə.
Məndən qaçır din-imanım,
Səndən şeir gəlməyəndə!

Çətin keçir ayım-ilim,
Solur bağda qönçə gülüm.
Oxumur şeyda bülbülüm,
Səndən şeir gəlməyəndə!

Yar qoyarmı yarı darda,
Sən hardasan, xəyal orda.
Könlüm qalır ahü-zarda,
Səndən şeir gəlməyəndə!

Dərdim gəlir qoşun-qoşun,
Başdan gedir ağlım-huşum.
Kədər olur yol yoldaşım,
Səndən şeir gəlməyəndə!

Sadə ağlar, qan-yaş tökər,
Bənövşətək boynun bükər.
Gündüzünə zülmət çökər,
Səndən şeir gəlməyəndə!

ÖNÜMDƏKİ HAQQ YOLUDU

Hədyan-hərzə söyləyənlər,
Mənim sinəm söz doludu.
Dərk eyləyin siz, anlayın,
Önümdəki Haqq yoludu!

Gün keçsə də şirin-acı,
Olmuşam dərd-qəm əlacı.
Böyüklərdi başım tacı,
Koküm-soyum çox uludu!

Lay divaram - sökülmərəm,
Yamaq olub tikilmərəm,
Əyilmərəm bükülmərəm,
Sadə Rəbbin bir quludu!

BİL

Macəradı eşq yolu,
Məni məndən aldl bil.
Bağlayıb əli, qolu,
Hardan hara saldı bil.

Dumanlıdı sabahı,
Dağdan ağırdı ahı.
Sevənin yox günahı,
Ürəyimdə xaldl bil.

Sevgi doğan Günəşdi,
Od alovdu, atəşdi.
Baxdı gözüylə, seçdi,
Sevgi dili laldı bil.

Evi mələk yuvası,
Dadı cənnət xurması.
Eşqdi abü-havası,
Qanan əhli haldı bil.

Sevgi dili həyalı,
Sevir doğru halalı.
Abır, ismət cəlalı,
Yanaqları aldı bil.

Var gecəsi, gündüzü,
Əyridən çoxdu düzü.
Budur Sadənin sözü,
Zəhəri də baldı bil!

QORXURAM

Gözlərin qara bulud,
Yağışından qorxuram.
Gurlayıb şimsək çaxır,
Çaxışından qorxuram.

Yorma, bu yaşda məni,
Yaz dərdə başda məni.
Sən özün daşda məni,
Qurğuşundan qorxuram.

Təbib bular dərmanı,
Aqil yatırdar qanı.
Kim ki, sevmir insanı,
Qarğışından qorxuram.

Ceyranın çölü gözəl,
Sonanın gölü gözəl.
Torpağın gülü gözəl,
Qamışından qorxuram.

Sadə, ömür talandı,
Dünyada kim qalandı?
Sel kimidir - əyandı,
Axışından qorxuram!

AY ELOĞLU, SÖZÜM BUDUR

Ay eloğlu, sözüm budur,
El-obaya sən arxa dur.
Ömür axıb gedən sudur,
Bacarıb al bərəkallah!

Yaxşılıq et, olma yaman,
Üzü güldür, qaraltma qan.
Həm çətinə düşən zaman,
Həm xoş gündə soylə Allah!

Vətən üçün durma çalış,
Hər zəhmətə-işə alış.
Sərin Güləm, sən al alqış,
Çaşdırmasın səni tamah!

BAŞ AÇMIRSAN BU DÜNYADAN

Kimi səni başa çəkir,
Kimi səni daşa çəkir.
Kimi səni aşa çəkir,
Baş açmırsan bu dünyadan!

Acığından əsir biri,
Ayağından çəkir biri.
Səni asıb-kəsir biri,
Baş açmırsan bu dünyadan!

Arif dərdə dərman deyir,
Sərin Gülə can-can deyir.
Biri isə qan-qan deyir,
Baş açmırsan bu dünyadan!

AZƏRBAYCAN ƏSGƏRİ

Qazanıbdı ad-sanı,
Heyran qoyub cahanı.
Ürəklərdə ünvanı,
Azərbaycan əsgəri,
Göstərdi ər hünəri!

Düşmənini xar etdi,
Dünyasını dar etdi.
Erməni ah-zar etdi,
Azərbaycan əsgəri,
Yardı neçə səngəri!

SərinGülə qürurdu,
Yenilməzdi, məğrurdu.
Hər biridi bir ordu,
Azərbaycan əsgəri,
Çaldı parlaq zəfəri!

ŞAİR OLAN

Şair girməz hər oyuna,
Pələng deməz bir qoyuna.
Bənzəyər öz kök-soyuna,
Doğru-düzgün hesab gəzər.

Gözü olmaz dövlət-varda,
Özü qalsa ahü-zarda.
Dostlarını qoymaz darda,
İşə yarar, savab gəzər.

Çətinliyə sinə gərər,
Şair müdrik tədbir görər,
Ümidsizə ümid verər,
Zəy dadana qəndab gəzər.

Keçmişlərə salar işıq,
Xalqa deyər biz qardaşıq.
Nəğmə dinlər, sevər aşıq,
Hər suala cavab gəzər.

Öndə gedər sədaqətdə,
Ad-san alar söz-hikmətdə.
SərinGül də bu halətdə,
Qələm-dəftər, kitab gəzər.

TÜRK ELLƏRİ

Fərqi yoxdur Qıpçaq, Oğuz,
Türklə Türkmən, Qazax, Qırğız.
Bilməlidir hər oğlan, qız,
Bunlar doğma qardaşdılar.

Özbək, Uyğur, Başqırd, Tatar,
Hər birinə salam apar.
Tale olsun hamsına yar,
Bir-biriylə sirdaşdılar.

Türk qılıncı durmaz qında,
Güc var Türkün qollarında.
Sadə, Turan yollarında,
Türk elləri yoldaşdılar.

TURANA TAY EL OLMAZ

Turan kimi diyar yox,
Türküm kimi dost, yar yox.
Gəzmişəm hər yeri çox,
Turana tay el olmaz!

Turan eşqim dərindi,
Qoy danışım mən indi –
Türkün dili şirindi,
Onun kimi dil olmaz!

Bizdə çoxdu pir-dədə,
Öyülüblər hər vədə.
Sadə kimi kimsədə,
Türk sevdası, bil, olmaz!

AZƏRBAYCAN – CANIMIZ

Bəllidi ad-sanımız,
Şöhrətimiz-şanımız.
Azərbaycan – canımız –
Cənnətin bir tayıdı!

Göstərmişik hünəri,
Çalmışıq biz Zəfəri.
Dildə dastan Xəzəri,
Kürü ümid çayıdı!

Sadə sevir torpağı,
Ay-ulduzlu bayrağı.
Doqquz iqlim qurşağı,
Bizə Tanrı payıdı!

MƏNİM ULU TURANIM

Arzu, istək, xəyalım,
Şan-şöhrətim, calalım,
Eşq-ilhamım, amalım,
Mənim Ulu Turanım!

Tale sənə yar olsun,
Düşmənlərin xar olsun!
Elin-oban var olsun,
Mənim Ulu Turanım!

Keçmişləri sal yada,
Tezcə tanın dünyada.
Sadə çatsın murada,
Mənim Ulu Turanım!

RÜBAİLƏR

Min yol ölər gündə görən gözdağı,
Hörmət itər, qırılanda söz bağı.
Sadə ömrü xəzan kimi saralsın,
Çiçəkləyib bar gətirsin söz bağı.

***

Çıxmasın kimsənin sözünün "ağı",
Vurmayın, vurarlar sizə söz dağı.
Aç ağzını, səni bilək deyiblər,
Söz adamın üz qarası, üz ağı!

***

Aşiqə eşq ilə söyləyin sözü,
Külə çevrilməsin eşqinin közü.
Məhəbbət insanla birgə gəlibdi,
Çəkə bilərikmi biz ondan gözü?

***

Canım qəm-kədərdən odlara yanır,
Dərdim azalammır, hey məni anır.
Tutubdu yamanlıq onun gözünü,
Mən ağ söyləyirəm, o, qara qanır.

***

Ey gözləri şəhla, dodağı püstə,
Daş kimi qalmışam yolların üstə.
Gəl, nura qərq eylə könlüm evini,
Eşqin dilə gəlsə, Sadəni səslə.

Gələn-gedən bu dünyanı qınayır,
Töhmət edir, söyüş söyür, yanıyır.
İnsan oğlu zəhər qatıb aşına,
Zülm eyləyir, səbrini də sınayır.

***

Elə ki, dinlədik bir əhli-halı,
Baxdıq ki, hər sözü Qorqud misalı.
Danışıb-söyləyir ürəkdən-candan,
Elə bil süzülür beçənin balı.

***

Nə pislik var bu dünyada biz etdik,
Söküb-töküb dağlarını düz etdik.
Əzəl gündən bulandırdıq suyunu,
Özünü də ağızlara söz etdik.

***

Duman gəldi, sazım qəmə kökləndi,
Aşıb-daşıb, dərd belimə yükləndi.
Bulud aldl göy üzünü bir anda,
Könlüm quşu səmalarda təkləndi.

***

Könlüm dan yeridi, etməyin qınaq,
Aşiqlər adı var könlümdə ancaq.
Yamanlarla mənim bir işim yoxdu,
Haqqı sevənlərə asmışam qulaq.

Yamanlığın eldə bədnam adı var,
Yaxşılığın dünya boyda dadı var.
Min loğman yığışsa qurtara bilməz,
Xəsisliyin can yandıran odu var!

***

Qəlb kor olsa, olmaz gözün faydası,
Yersiz sözdü deyənin üz qarası.
Ədəb olmayanda ağıl da heçdir,
Tək ölümdür paxıllığın çarası.

***

İnsanın tək olsun ağlı-kamalı,
Heç kimə qalmayıb dünyanın malı.
Yaxşılıqdan körpülər sal, saray qur,
Eylə səxavəti Hatəm misalı.

***

Od götürdüm ocağının közündən,
Söz bitirdim hər dediyi sözündən.
Bir dən atdın torpağına dünyanın,
Min götürdüm əvəzini özündən.

***

Qurutmuşam mən bağçamı-bağımı,
Əritmişəm ürəyimin yağını.
Gəzdirirəm bu dünyada sərasər,
Kürəyimdə dərdlərimin dağını.

Sönməz ümid şamın göylərdə Aydı,
Eşqim dərya-ümman, gur axan çaydı.
Pis işləri görmür könlümün gözü,
Ürəyim tərtəmiz – Günəşə taydı.

***

Silkələrək yeri, göyü – cahanı,
Eşqə verrəm bir nədir ki, min canı.
Mən qoymaram səbrim aşıb-daşmağa,
İncitmərəm heç zaman bir insanı!

***

Əgər kimə varsa xalqın inamı,
Allah qoymaz sönə o yanan şamı.
Göyün bəlasından, yer xətasından,
Qoruyub saxlayır elə insanı!

***

Meyə meyl eyləmir, eşqədi meylim,
Mən dərdin Məcnunu, dərd mənim Leylim.
Şeytanlar dolaşır insan cildində,
Fələk də baş açmır, mən yazıq neylim?

***

Göydən yerə yağış olub ələndim,
Bir şeh kimi güllər üstə çiləndim.
Misralarda ləçəklənib gül açdım,
Sazın, sözün hikmətinə bələndim.

Dərd gördüm dünyada ölümdən betər,
Göz yaşım dünyanın selindən betər.
Dolandım dünyanı hey qarış-qarış,
Qürbət el istəməm, öz ölkəm yetər!

***

Dünya yadda qalıb gözəlləriylə,
Xudam xəlq eləyib öz əlləriylə.
Ayırmaq asandı yaxşıdan pisi,
İnsanlar seçilir əməlləriylə.

***

Həyatın qaydası budur binadan,
İnsan var aqildi, insan var nadan.
Əzəldən belədir dünyanın işi,
Kimiyə saraydı, kimiyə zindan!

***

Elə ki, yetişdi günümün ağı,
Güllərə bürüdü bağçanı-bağı.
Yaydı dörd bir yana müşk-ənbər kimi,
Ətri məst eylədi aranı-dağı.

***

Ümid verən, könül açan söz oldum,
Yaxşılığı görüb seçən göz oldum.
Naqislərlə, nadanlarla işim yox,
Yamanları qarsalayan köz oldum!

Böyüdükcə başa düşdüm həyatı,
Anladım ki, "göy iraqdı, yer qatı".
El-obaya, xalqımıza can deyib,
Atam kimi mən də yazdım bayatı.

***

Gəlin alqışlayaq Azərbaycanı,
Kəlağayı da bir şöhrəti-şanı.
Sevə-sevə alıb örtürlər başa,
Nənələr tündünü, qızlar - əlvanı.

***

Göydə ulduz səpələnən közümdü,
Çaxan şimşək haqsızlığa sözümdü.
Ümidimdi gördüyünüz dan yeri,
Buludsa arzumdu – düzüm-düzümdü!

***

Sözdü bu dünyada əbədi – ölməz,
Sözün qüdrətini de, kimlər bilməz?
Yarat ki, elə bir "Könül körpüsü",
Zamanın selləri tarixdən silməz!

***

Fitnəkar insanın qəlbi yaradır,
Nə iş görsə belə, üzü qaradır.
Atalar çox gözəl söyləmiş bunu –
"Niyyətin harasa, mənzil oradır".

Buna yox demirəm - cananı düşün
Ondan əvvəl ata-ananı düşün.
Yerini-yurdunu, dostu-sirdaşı,
Canı sənin üçün yananı düşün!

***

Sən nurdanmı, şəfəqdənmi yarandın?
Gözəlliyin darağıyla darandın.
Səni görən camalına vuruldu,
Ətir saçan bir gül kimi arandın.

***

Kimə ki, deyirəm doğrunu, düzü,
Sözümə baxmayır, bozardır üzü.
Nədənsə çox insan tərifi sevir,
Mənə irad tutur, baxıram yüzü!

***

Şəhid bacısıdı bizim Münəvvər,
O, illər uzunu çəkibdi qəhər.
Qarabağ şəhidi Nəsib qardaşı,
Ölməyib, yaşayır bizlə bərabər.

***

Dillərdə dastandı Tərmeyxanımız,
Bizim şöhrətimiz, bizim şanımız.
Eşq, ilham sahibi, ustad aşıqdı,
Onsuz heç keçməyir toy-nişanımız.

Nəriman müəllim, görmə sən acı ,
Hər vaxt başımızın olubsan tacı .
Xalqımız fəxr edir daim sizinlə,
Deyirsən sadəyə ey qələm bacı !

***

Yetdi yerinə də hər arzu-dilək,
Erməni diz çöküb, tutdu çox ətək.
Düşməni yox etdi Şanlı Ordumuz,
Zəfər bayramımız olsun mübarək !

***

Vəsf edir Vətəni Azərbaycanı,
El-oba yolunda qoyubdu canı.
O, Aydan arıdı, sudan da duru,
Brilyant Atəşdi şeir uzmanı!

***

Dilləndirir – elə çalır kamanı,
Sehran xanım əfsun edir insanı.
Onun ilə fəxr eyləyir xalqımız,
Təhsildə də qazanıbdır ad-sanı!

***

Keçmir boğazımdan sözü dünyanın,
Ərşə çəkilibdi düzü dünyanın.
Mərdi qovub, o namərdə döndərir,
Agah ol,namərddi özü dünyanın.

Q E Y D

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner**:** **Zahid Məmmədov**
Texniki redaktor: **Elnarə Malikqızı**

Çapa imzalanmış 13.02.2026
Şərti çap vərəqi 17. Sifariş № 13
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4